

Milli azadlıqdan şirin nemət yoxdur!


YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

15 noyabr 2024-cü il, cümə

№ 208 (6794)

Qiyməti 60 qəpik


# Çərçivəyə sığmayan konfrans

# Liderlərin Sammiti!




Bax səh. 2

# COP hərəkatında yeni cığır...

Bax səh. 3








Bax səh. 4-5

# YAP nümayəndə heyəti Çində səfərdədir

## Kiçik ölkələrin problemlərinə böyük dövlətlərin laqeydliyi...

Bax səh. 3

## TDT ölkələrinin "Nazirlər Bəyannaməsi"

Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29)türk dövlətləri də fəal təmsil olunur. Bu da təsadüfi deyil. Son illər türk dövlətləri arasında bütün sahələr üzrə əlaqələr əhəmiyyətli dərəcədə genişlənib.

Ümumiyyətlə, tarixin bütün dönəmlərində türklər özlərinin qüdrəti, gücü, zəngin dövlətçilik ənənələri ilə seçilmiş, dünyanın ən üstün dəyərlərə malik sivilizasiyalarından...

Bax səh. 6

## Qarabağda sahibkarlıq mühiti...

44 günlük Vətən müharibəsindən sonra işğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsi, Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bərpa-quruculuq işləri, yeni infrastrukturun yaradılması istiqamətində görülən işlər burada sahibkarlıq fəaliyyəti üçün əlverişli imkanlar yaradıb. Düşmənin 30 il ərzində xarabalığa çevirdiyi, daşı daş üstdə qoymadığı torpaqlarımızda həyat yenidən canlanır, insanların, xüsusilə sahibkarların qurub-yaratmaq...

Bax səh. 6

## Taleyə qarşı peyvənd

Kalderon ispan ədəbiyyatının Servantesdən sonra dünya miqyaslı ən böyük fiqurudur. Hələ yeniyetməykən qoşulduğu bir poeziya yarışmasında İspaniya intibahının zirvəsi, dövrün canlı əfsanəsi, diri klassiki Lope de Veqanın tərifini qazanması onun sənət gələcəyinə işıq dəhlizi açmış, bir kahinin, münəccimin peyğəmbəranə öncəgörməsi kimi gənc şairin ilhamına qanad vermişdi. Əsərlərinin fəlsəfi dərinliyinə, bədii gücünə görə Pedro Kalderonu özündən əvvəlki dramaturqlardan yalnız Vilyam Şekspirlə yanaşı qoymaq olar. Əbəs yerə onu "katoliklərin Şekspiri" adlandırmırlar. Başqa...

Bax səh. 7

## Ermənistan törətdiyi cinayətlərə görə cavab verəcək



Bax səh. 6

## 1 milyon mərmi vəziyyəti dəyişəcəkmi?



Bax səh. 7

# Görüşlər davam edir...

Prezident İlham Əliyev noyabrın 14-də Banqladeş Xalq Respublikası Müvəqqəti Hökumətinin Baş müşaviri Məhəmməd Yunus, BMT Baş Assambleyasının 79-cu sessiyasının Prezidenti Filemon Yanq, Monteneqronun Prezidenti Yakov Milatoviç, Yəmən Respublikasının vitse-prezidenti Abdulla Al-Alimi, Şimali Makedoniya Respublikasının Prezidenti xanım Qordana Silyanovska-Davkova, Maldiv Respublikasının Prezidenti Məhəmməd Muizzu, Nepalın Prezidenti Ramçandra Paudel, Braziliya Federativ Respublikasının vitse-prezidenti Jeraldu Alkmin, İslam İnkişaf Bankının prezidenti Məhəmməd Əl-Casir, Efiopiya Federativ Demokratik Respublikasının Prezidenti Taye Atske Sellasiye, Avropa Şurasının Baş katibi Alen Berse ilə görüşüb.







# Çərçivəyə sığmayan konfrans

## Liderlərin Sammiti!

### Azərbaycan COP29-a layiqli ev sahibliyi edir

Son illərdə Azərbaycan mühüm beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilib. Budur, dünyanın nəzərləri yenidən Azərbaycana dikilib. Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) keçirilir.

Artıq konfrans çərçivəsində bir sıra mühüm tədbirlər, o cümlədən də dövlət və hökumət başçılarının, BMT-nin Baş katibinin iştirakı ilə Liderlər Sammiti baş tutub. Prezident İlham Əliyev Liderlər Sammitində çıxış edib. Dövlətimizin başçısı çıxışında indiki dönəmdə dünya üçün aktuallığı heç vaxt olmadığı qədər artan iqlim çağırışlarına Azərbaycanın həssas yanaşmasını, ölkəmizin daim qlobal təhdidlər qarşısında beynəlxalq həmrəyliyin gücləndirilməsi təşəbbüslərindən çıxış etdiyini, bu və ya digər məsələlərdə yüksək fəallıq göstərdiyini diqqətə çatdırıb.

### Beynəlxalq səviyyədə ölkəmizə olan hörmətin və inamın göstəricisi

COP29 BMT-in ən böyük tədbirlərindən biridir. Bir neçə gün ərzində paytaxtımızda qlobal istiləşmə və güclü sənaye inkişafı fonunda müşahidə edilən və ağır fəsadlar yaradan iqlim dəyişmələri ilə bağlı aktual müzakirələr aparılacaq və önəmli qərarlar qəbul olunacaq.

Belə bir mötəbər tədbirə ev sahibliyi hüququnun Azərbaycana verilməsi isə heç də təsadüfi deyil. İndiki dönəmdə hansısa bir ölkəni dünya birliyi üçün cəlbedici edən cəhətlərdən ən önəmlisi onun beynəlxalq imicidir. Bu kontekstdən çıxış edən beynəlxalq təşkilatlar öz tədbirlərini keçirərkən ölkənin imkanları və resursları ilə yanaşı, qlobal miqyasda mövqelərini də nəzərə alırlar.

Eyni zamanda, dünya birliyinin inamı Azərbaycanın beynəlxalq səviyyəli tədbirlərin keçirilməsində qazandığı zəngin təcrübədən qaynaqlanır. Beynəlxalq səviyyəli idman yarışlarını, müxtəlif mövzularda forumları, konfransları, müsabiqələri bura aid etmək olar. Həmin tədbirlərdə Azərbaycan özünün yüksək standartlarını təqdim edib və sonradan bu standartlar dünya səviyyəsində qəbul olunub. Liderlər Sammitindəki çıxışında ötən ilin dekabrında Dubayda baş tutan COP28 çərçivəsində beynəlxalq birliyin yekdilliklə COP29-a ev sahibliyi hüququnu Azərbaycana verməsindən məmnunluğunu bildirən Prezident İlham Əliyev vurğulayıb: "Ötən ilin dekabrında təxminən 200 ölkənin yekdil qərarı ilə Azərbaycana COP29-a ev sahibliyi etmək şərəfi verildi. Biz bu qərarı ölkəmizə olan hörmətin əlaməti, beynəlxalq arenada oynadığımız fəal rolun dəyərləndirilməsi kimi görürük".

Öz növbəsində Azərbaycan da ənənəsinə sadiq qalaraq COP29-a son dərəcə məsuliyyətli hazırlıq həyata keçirib. Bütün hazırlıq işləri Prezident İlham Əliyevin cari ilin yanvarında imzaladığı müvafiq Sərəncam əsasında yaradılan COP29-un keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin rəhbərliyi ilə həyata keçirilib. Ötən dövr ərzində Təşkilat Komitəsinin 8 iclası baş tutub. Eyni zamanda, Prezident İlham Əliyev hazırlıq işlərinin gedişini şəxsi nəzarətində saxlayıb. Sonuncu dəfə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 4-də Bakı Olimpiya Stadionunun ərazisində COP29-la bağlı yaradılan şəraitlə tanış olublar.




Hazırlıq işlərinə belə məsuliyyətli yanaşmanın nəticəsidir ki, hazırda bütün dünya COP tarixində Bakıda çərçivəyə sığmayan bir konfrans izləyir. Azərbaycan COP29-a hər cəhətdən layiqli ev sahibliyi edir. Ölkəmiz beynəlxalq birliyə iqlim çağırışları ilə bağlı müzakirələrin aparılması üçün böyük bir platforma təqdim edib.

Yeri gəlmişkən, Bakıda COP29-un yüksək səviyyədə keçirilməsi müxtəlif ölkələri təmsil edən qonaqlar, rəsmi şəxslər, media nümayəndələri və ekspertlərlə yanaşı, dünya liderləri tərəfindən də qiymətləndirilir, tədbirlərin səviyyəsindən məmnunluq ifadə olunur. Yüksəksəviyyəli rəsmi nümayəndələr COP29 çərçivəsində keçirilən plenar iclaslarda, eləcə də digər tədbir və görüşlərdə, müsahibələrdə Azərbaycanın yüksək təşkilatçılıq qabiliyyətini, qonaqpərvərliyini və peşəkarlığını təqdir edir, COP29 danışıqlarının uğurla nəticələnəcəyinə ümidvarlıqlarını bildirirlər.









### Azərbaycan qitələr arasında körpülər yaradan ölkədir

Hazırda dünyada arzuolunmaz proseslər izlənilir. Bütün dünyanı çətinliklərlə, fəsadlarla üz-üzə qoyan bu proseslər əksər hallarda dövlətlər və qitələr arasında həmrəyliyin, ümumi, yekdil baxışların, yanaşmaların olmamasından və yaxud çox zəif olmasından qaynaqlanır. Təəssüf doğuran haldır ki, bu gün Qlobal Şərqlə Qlobal Qərb arasında konsensus yoxdur, əksinə ziddiyyətlər getdikcə artır. Ancaq dünya getdikcə dərinləşən problemlərin, o cümlədən də Yer üzündə milyonlarla insanı humanitar və sosial fəlakətə düçar edən iqlim dəyişmələrinin yaratdığı fəsadların üzərinə birlikdə getməli və daha təsirli, daha real tədbirlər görməlidir. Dərk olunmalıdır ki, təcrid olunmuş hansısa bir ölkə, ayrılıqda götürülmüş hansısa bir qitə qlobal faciələrin öhdəsindən təkbaşına gələ bilməz.

Burada Azərbaycanın nümunəsi bütün dünya üçün bir model kimi götürülə bilər. Hər şeydən əvvəl onu qeyd edək ki, Azərbaycanın unikal coğrafi yerləşməsi var - ölkəmiz həm Avropadır, həm də Asiyadır. Eyni zamanda, ölkəmizin rolu yalnız coğrafiya ilə bağlı deyil. "Azərbaycan Şimal ilə Cənub, Qərb ilə Şərqin qovuşduğu ölkədir və bu, təkcə coğrafiya ilə bağlı deyil. Biz müxtəlif beynəlxalq iştirakçılar arasında siyasi, mədəni, enerji, ticari və nəqliyyat körpülərini sala bilərik", - deyə Prezident İlham Əliyev vurğulayıb.

Dövlətimizin başçısı dünyanın indiki həssas dönəmində Azərbaycanın əvəzolunmaz roluna diqqət çəkərkən ilk növbədə ölkəmizin reallıqlarından çıxış edib. Prezident İlham Əliyevin bildirdiyi kimi, eyni zamanda, biz mədəniyyətlərarası dialoqda fəal rol oynayırıq. Bəli, dünyada ikili standartların, ayrı-seçkilik hallarının, irqçiliyin, islamofobiyanın, ksenofobiyanın hökm sürdüyü kədərli mənzərə ilə müqayisədə, Azərbaycan reallığı tamam fərqlidir. Onilliklər ərzində qonşu dövlətin işğalçılıq siyasətindən əziyyət çəkmiş Azərbaycanın hazırkı narahat dünyada sivilizasiyalararası dialoqa, multikultural dəyərlərin qorunmasına verdiyi töhfələr xüsusilə diqqətəlayiqdir. Bakıda ardıcıl olaraq İlham Əliyevin təşəbbüsü ilə əsası qoyulan Mədəniyyətlərarası Dialoq və Humanitar forumlar baş tutur. Artıq bütün dünyada tanınan Qlobal Bakı Forumu Azərbaycan Prezidentinin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə 2013-cü ildən keçirilir. "Multikulturalizm bizim dövlət siyasətimizdir və həyat tərzimizdir. Azərbaycan xalqı etnik və dini mənsubiyyətindən asılı olmayaraq sülh və razılıq şəraitində bir ailə kimi yaşayır", - deyə Prezident İlham Əliyev vurğulayıb.

Ölkəmiz həmçinin müstəqillik illərində qonşu dövlətlərlə və transmilli şirkətlərlə birlikdə reallaşdırdığı layihələrlə də Qlobal Cənubla Qlobal Şimal arasında körpülər qurulmasına sanballı töhfələrini verir. Ölkəmizin təşəbbüsləri və fəal iştirakı ilə həyata vəsiqə alan bu layihələr əsasən enerji və nəqliyyat sektorlarını əhatə edir. Bu layihələrin önəminə diqqət çəkən Prezident İlham Əliyev bildirib ki, Azərbaycanın başladığı meqalayihələr artıq Avrasiyanın enerji və daşımalar yollarını dəyişib və məhsuldar, çoxtərəfli \ formatının qurulması ilə nəticələnib.

Azərbaycan bundan sonra da dünyada birləşdirici roluna, qitələri, xalqları, ölkələri bir araya gətirməyə hesablanan siyasətinə sadiq qalacaq. COP29-un sədri kimi Azərbaycanın inkişaf etmiş və inkişaf edən ölkələr, Qlobal Cənub və Qlobal Şimal arasında ümumi anlaşmaya nail olmaq üçün əlindən gələni edəcəyini bildirən Prezident İlham Əliyev vurğulayıb: " Azərbaycan 120 ölkənin yekdil qərarı ilə dörd il ərzində, BMT-dən sonra ikinci beynəlxalq qurum olan Qoşulmama Hərəkatına uğurla sədrlik etdi.

Azərbaycan, həmçinin təxminən 60 ölkəni birləşdirən İslam Əməkdaşlıq Təşkilatının fəal üzvüdür. Avropa İttifaqının 10 üzvü ilə Azərbaycan sazişlər imzalayıb və Strateji tərəfdaşlıq haqqında bəyannamələr qəbul edib. Bütün bunlar bizə düşünməyə imkan verir ki, biz iqlim dəyişmələri məsələsində fərqli mühüm iştirakçılar arasında körpülərin salınmasında çox faydalı və yardımçı ola bilərik".

**Mübariz ABDULLAYEV**

## COP29 əsas iqlim prioritetlərinin müzakirəsi üçün ən mühüm platforma kimi - Neokolonialistlər yenə də məğlubdur!

# Kiçik ölkələrin problemlərinə böyük dövlətlərin laqeydliyi...

## Bakı ən mühüm problemin həllinə töhfə vəd edir

İqlim Dəyişikliyi haqqında Çərçivə Konvensiyası müstəvisində hər il keçirilən Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi Konfransları problemin həllində çoxtərəfli imkanların səfərbər olunmasına xidmət göstərir. 1990-cı illərin ortalarından etibarən inkişaf etmiş ölkələr üçün istixana qazı emissiyalarını azaltmaq üçün hüquqi cəhətdən məcburi öhdəliklər qoyan Kioto Protokolunu müzakirə etmək üçün təşkil edilən Tərəflər Konfransı (COP) həm də bu mənada, mühüm əməkdaşlıq platformasıdır.

Azərbaycanın ev sahibliyi etdiyi COP29 sammiti də iqlim dəyişikliyindən ən çox əziyyət çəkən və həssas vəziyyətdə olan kiçik dövlətlərin problemlərinin həllində yeni və mühüm bir mərhələ kimi qiymətləndirilir. Bu sammit çərçivəsində hədəflənən ən mühüm istiqamətlərdən biri də məhz kiçik dövlətlərin səsinin qlobal səviyyədə daha geniş eşitdirilməsi, onların iqlim problemlərinin həlli üçün xüsusi platformaların, maliyyə və texniki dəstək mexanizmlərinin gücləndirilməsidir.

**“Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi kiçik ada dövlətlərinə dəstək verib, COP29-un sədri kimi onları dəstəkləyəcək və gələcəkdə dostlarımızı dəstəkləməkdə davam edəcək”**

### Fransa həm də ekoloji terror törədir

Qeyd edək ki, Azərbaycan hər zaman və iştirakçısı olduğu bütün platformalarda kiçik dövlətlərin mənafeyinin qoruyucusu kimi çıxış edib. İstər Qoşulmama Hərəkatı çərçivəsində, istər qlobal pandemiya dövründə “vaksin bölgüsü” məsələsində, istərsə də neokolonializmə qarşı mübarizədə kiçik dövlətlərə verilən dəstək bunun bariz sübutudur. Bakı Təşəbbüs Qrupu tərəfindən aparılan fəaliyyət Fransanın dəniz aşırı ərazilərdə törətdiyi soyqırımları, qanunsuzluqlar, insan haqlarının kütləvi pozulması kimi hallarla yanaşı, həmin ərazilərə vurulan ekoloji zərərləri də ifşa edir. COP29 çərçivəsində inkişaf etməkdə olan kiçik ada dövlətlərinin Sammitində çıxışında Prezident İlham Əliyev bildirib ki, Yeni Kaledoniya, Fransa Polineziyası, Mayot, Vallis və Futuna, Korsika, Reunion, Qvadelupa, Martinika, Fransa Qvianası, Sen-Pyer və Mikelon, Sent-Mert və Sent Varfolomey kimi Fransa müstəmləkələrinin xalqları, eləcə də Niderlandın Aruba, Kurasao, Sənt-Maarten, Boneyr, Sent Yefstaxiy və Saba kimi müstəmləkələrinin xalqları bu gün XXI əsrdə də müstəmləkə hakimiyyətindən əziyyət çəkirlər: “Hazırda Fransa Polineziyası və Yeni Kaledoniya 1946-1947-ci illərdə BMT tərəfindən qeyri-özünü idarə edən ərazilər kimi tanınır. Bununla belə, onların dekolonizasiya prosesi hələ də yubanır. 1966-1996-cı illər ərzində Fransa Polineziyası Fransanın apardığı 193 nüvə sınağı səbəbindən ətraf mühitin ciddi pozulması ilə üzləşib. Fransa orada torpaq və suyun kəskin dərəcədə zəhərlənməsi və radiasiyasına görə məsuliyyət daşıyır. Radiasiya səviyyəsi 4900 faizi keçib. Əgər buna Fransanın Əlcəzairdə illər boyu işğalı zamanı həyata keçirdiyi 17 nüvə sınağını əlavə etsək, biz həmin ölkə tərəfindən planetin ekosisteminə hansı zərərin vurulduğunu görərik”.

Bu baxımdan, Azərbaycanın ev sahibliyi etdiyi COP29 həm də kiçik ölkələrin üzləşdiyi bəzi unikal problemlərə - yüksələn dəniz səviyyəsi, intensiv daşqın və quraqlıq kimi fəsadlara, eyni zamanda, iqlim dəyişikliyindən qaynaqlanan fərqli problemlərə qarşı mübarizə effekti yaradır. Bununla bağlı KİV-ə açıqlamasında bir sıra qurumların və dövlətlərin təmsilçiləri öz fikirlərini bölüşürlər - məsələn, Antiqua və Barbudanın iqlim məsələləri üzrə səfiri Ruleta Kamaço Tomas inkişaf etməkdə olan kiçik ada dövlətləri üçün iddialı qlobal liderliyin və əhəmiyyətli maliyyə dəstəyinin kritik əhəmiyyətini vurğulayıb. Səfir Antiqua və Barbuda kimi kiçik ada dövlətləri üçün iqlim dəyişikliyinin ağır nəticələrinə diqqət çəkərək, beynəlxalq

### Kiçik dövlətlərinə daha güclü dəstək...

ictimaiyyəti həssas ölkələrə yardım öhdəliyini təsdiqləməyə çağırıb. “Biz gözləyirik ki, iqlim dəyişikliyi ilə bağlı qlobal liderlik əvvəlki kimi iddialı və təsirli qalacaq. Xüsusilə inkişaf etməkdə olan kiçik ada dövlətlərinə təsirinə gəldikdə, dünya liderlərinin qarşılaşdığımız risk səviyyəsini azaltmağa kömək etmək əzmini təsdiqləməyə ümid edirik”, - o bildirib. Antiqua və Barbuda üçün ən kəskin problemlərdən biri haqqında danışan səfir iqlim dəyişikliyinə uyğunlaşmanın maliyyələşdirilməsinin vacibliyini vurğulayıb. R.Tomas iqlim dəyişikliyinin yaratdığı maliyyə problemlərinin həlli üçün kreditlərdən deyil, qrant alətlərindən istifadə etməyə, böyük ölkələri və emissiya mənbələrini real addımlar atmağa və hesabatlı olmağa çağırıb. O, həmçinin COP29-un təşkilində Azərbaycanın rolunu dəstəkləyərək, ölkənin iqlim dəyişikliyi ilə mübarizəyə sadiqliyini yüksək qiymətləndirib.




### Böyük təhlükələr...

Ümumiyyətlə, kiçik ada dövlətləri və inkişaf etməkdə olan ölkələr iqlim dəyişikliyinin fəsadlarına ən çox məruz qalan ölkələr arasındadır. Bu ölkələr həm coğrafi, həm də iqtisadi cəhətdən iqlim dəyişikliyinə qarşı ən zəif müdafiəyə malikdir. Birləşmiş Millətlər Təşkilatlarının müvafiq hesablamalarına görə, iqlim dəyişikliyi səbəbilə əhali köçlərinin, su resurslarının tükənməsinin, kənd təsərrüfatı məhsuldarlığının azalmasının və dəniz səviyyəsinin qalxmasının əsas təsirini bu ölkələr görməkdədir. Prezident İlham Əliyev sözügedən tədbirdəki çıxışında neokolonializm və iqlim dəyişmələri ilə bağlı məsələyə toxunaraq vurğulayıb ki, Fransa və Niderlandın xüsusən də Karib dənizi və Sakit Okean regionundakı dırnaqarası dəniz əraziləri iqlim dəyişmələrinin ən ciddi təsirinə məruz qalanlar sırasındadır: “Artan dəniz səviyyəsi, kəskin hava şəraiti və biomüxtəlifliyin pozulması həmin regionlara ciddi təhlükə yaradır. Həmin icmaların səsi bir çox hallarda onların metropoliyalarındakı rejimləri tərəfindən susdurulur”.

Fərqli misallara müraciət edək - Maldiv adaları, 2100-cü ilə qədər tamamilə su altında qalmaq riski ilə üzləşir. Dəniz səviyyəsinin ildə 1 sm qalxması nəticəsində Maldiv adaları kimi kiçik ada dövlətləri ciddi ekoloji təhlükə altındadır. Bangladeş kimi ölkələr isə daha böyük miqyasda daşqınlarla üzləşir. İllik daşqın hadisələri artıq əhalinin 30%-ni birbaşa təsir altına alır.

Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) İqlim strategiyası və inkişafı üzrə idarəedici direktoru Harri Boyd-Karpenter türkiyəli jurnalistlərə açıqlamasında iqlim böhranının təsirləri ilə mübarizə aparmaq üçün zəif inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin ehtiyaclarını ödəmək üçün 2030-cu ilə qədər 2,4 trilyon dollar lazım olduğunu bildirib. Onun sözlərinə görə, COP29 üçün prioritet Yeni Kollektiv Kəmiyyət Məqsədi (NCQG) kontekstində iqlim maliyyələşməsi çərçivələrinin razılaşdırılmasıdır. O vurğulayıb ki, zəif inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin iqlim maliyyələşdirilməsində gecikmənin hər ili bəşəriyyəti daha mürəkkəb nəticələrə gətirib çıxaracaq.

Bəli, Azərbaycanın bu qlobal problemdə rolu böyük dövlətləri iqlim dəyişikliyi ilə mübarizədə daha məsuliyyətli olmağa təşviq edəcək bir nümunə kimi dəyərləndirilir. COP29-un Bakıda keçirilməsi, Azərbaycanı həm regional, həm də qlobal səviyyədə iqlim dəyişikliyi məsələlərində aparıcı ölkələr sırasına çıxararaq kiçik dövlətlərin qlobal səylərdə daha güclü mövqe qazanmasına imkan yaradır. Bu addım kiçik dövlətlərin iqlim dəyişikliklərinin fəsadlarına qarşı mübarizədə daha güclü dəstəklənməsinə və onların maraqlarının COP çərçivəsində daha əhatəli şəkildə nəzərə alınmasına xidmət edir.

BMT-nin iqlim dəyişikliyi ilə bağlı qlobal sazişlərində böyük dövlətlərin inkişaf etməkdə olan ölkələrə maliyyə dəstəyi verməsi nəzərdə tutulur. 2009-cu ildə keçirilən COP15 Kopenhagen samitində ildə 100 milyard dollar dəyərində dəstək fondu vəd olunmuşdu. Lakin bu öhdəlik tam olaraq yerinə yetirilməyib. 2020-ci ildə bu məbləğin 83 milyard dollarına çatıldığı bildirilmişdi, yəni nəzərdə tutulan maliyyənin yalnız 83%-i təmin olunub. 2016-2019-cu illərdə verilən vəsaitlərin 71%-i kredit şəklində, yalnız 29%-i isə qrant olaraq verilib. Bu da

### “Yaşamaq üçün saziş” tövsiyyə olaraq qaldı...

Təəssüfləndirici haldır ki, kiçik dövlətlər COP samitlərində öz səsini duyurmağa çalışsalar da, onların təklif və tələbəri çox vaxt diqqətdən kənarda qalır. COP26-da Tuvalu, Fiji, Maldiv adaları kimi ölkələrin nümayəndələri emissiyaların təcili azaldılması üçün həyəcan təbili çalsa da, böyük dövlətlər yenə də lazımi dəstəyi göstərmədilər. Əvvəlki konfranslarda kiçik ada ölkələrinin nümayəndələri tərəfindən “Loss and Damage” (Ziyan və Zərər) adı altında böyük dövlətlərdən təzminat tələb olunsa da, təklif böyük dövlətlər tərəfindən rədd edildi. 2021-ci ildə Maldiv və Tuvalu nümayəndələri tərəfindən “Yaşamaq üçün saziş” təklifi təqdim olundu. Bu təklif qlobal istilik artışının 1.5°C-lə məhdudlaşdırılmasını tələb edirdi. Lakin COP26 qərarında bu hədəf yalnız tövsiyə olaraq qaldı.

### Məsuliyyət və laqeydlik...

az inkişaf etmiş ölkələr üçün əlavə borc təzyiqi yaradır. ABŞ, Kanada və Avstraliya kimi ölkələr COP öhdəliklərində böyük pay sahibləri olmalarına baxmayaraq, maliyyə dəstəyini tam təmin etmirlər. Məsələn, ABŞ 2021-ci ildə COP26 zamanı 11.4 milyard dollar maliyyə vədi versə də, indiyədək bu miqdarın yalnız bir hissəsi reallaşıb.

Paralel olaraq böyük dövlətlər dünya miqyasında karbon emissiyalarının əsas mənbəyi olaraq qalır. 2019-cu il məlumatlarına görə:

- Dünyada karbon emissiyalarının təxminən 47 faizi böyük dövlətlərin payına düşür;
- Əksinə, kiçik ada dövlətləri və az inkişaf etmiş ölkələr bu payın yalnız 0.5 faizini təşkil edir, lakin əks təsirə məruz qalan əsas dövlətlər də elə bu ölkələrdir.

İqlim dəyişikliyi ilə bağlı müzakirələrdə böyük dövlətlər öz iqtisadi maraqlarını müdafiə edərək emissiyaların azaldılması barədə ciddi addımlardan çəkinirlər. Bu, əsasən sənaye sektorunun iqtisadi zərurətlərlə əsaslandırılması və bərpa olunan enerji keçidində ləngliklə bağlıdır.

Bu problemlər isə adını “böyük dövlət”, “demokratiya keşikçisi” qoymuş ölkələr, adının qarşısına “beynəlxalq” yarlığı yapışdırmış təşkilatlar tərəfindən laqeydliklə qarşılanır. İrqi ayrı-seçkiliyi özünün əsas siyasi baxışına çevirmiş bu təşkilatların bəzi nümayəndələri isə kiçik dövlətləri aşağılamağa belə cəhd edirlər. Prezident İlham Əliyev bildirib ki, əgər Avropanın əsas diplomatı Cozef Borrell Avropanı bağ, dünyanın qalan hissəsini isə cəngəllik adlandırırsa, onda Avropa Parlamenti ilə Avropa Şurası Parlament Assambleyasından daha nə gözləmək olar?! “Əgər biz cəngəllikiksə, onda bizdən kənar durun və işlərimizə qarışmayın. Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi kiçik ada dövlətlərinə dəstək verib, COP29-un sədri kimi onları dəstəkləyəcək və gələcəkdə dostlarımızı dəstəkləməkdə davam edəcək”, - deyə dövlət başçısı qeyd edib.

### Maliyyə dəstəyi tam yerinə yetirilməli, öhdəliklərə daha ciddi yanaşılmalıdır

Nəticə etibarı ilə COP sammitləri əsasən, qlobal iqlim dəyişikliyi ilə mübarizə üçün yaradılan ən mühüm platformalardan biridir, lakin böyük dövlətlərin laqeydliyi kiçik ölkələrin qlobal iqlim dəyişikliyi ilə mübarizəsini çətinləşdirir. Böyük iqtisadi güclər iqlim dəyişikliyi ilə bağlı tədbirlərdə qlobal məsuliyyətlərini daha ciddi qəbul etmədikcə, kiçik və həssas ölkələrin yaşadığı çətinliklər daha da dərinləşəcək. Bu məsələdə böyük dövlətlərin həm maliyyə dəstəyini tam yerinə yetirməsi, həm də iqlim dəyişiklikləri ilə bağlı öhdəlikləri daha ciddi şəkildə qəbul etməsi olduqca vacibdir.

*Pərviz SADAYOĞLU*

# COP hərəkatında yeni cığır...

## 29-cu sammit daha mütəşəkkil və fəal müzakirələr, iradəli qərarlar ruhunda keçirilir

**Bakıda keçirilən COP29 sammiti Azərbaycanın qlobal miqyaslı mötəbər tədbirə olduqca peşəkarcasına və məsuliyyətlə hazırlaşdığını, builki tədbirin əvvəlki COP toplantılarına nisbətən daha mütəşəkkil və fəal müzakirələr, geniş məsləhətləşmələr ruhunda davam etdiyini təsdiqlədi. Dünya ölkələrinin liderləri və iştirakçılar iqlim ambisiyaları və qlobal fəaliyyət planları ilə bağlı daha açıq niyyətli və qərarlı olduqlarını nümayiş etdirməkdədir. İqlim konfransında təmsil olunan dövlət və hökumət başçılarının, mühüm dövlət qurumlarının, qeyri-hökumət təşkilatlarının, elm və beyin mərkəzlərinin nümayəndələrinin çıxış və fikirlərində diqqətçəkən ən mühüm məqamlardan biri karbon emissiyaların azaldılmasında vahid mövqenin və iradənin ortaya qoyulmasıdır. Bu və digər məqamlar Azərbaycanın COP ailəsini daha sıx platformada birləşdirmək məharətini təsdiqləyir.**

### Azərbaycan Paris sazişinin 6-cı maddəsini gerçəkləşdirdi

COP29-un ilk günündə ən mühüm hadisə Paris sazişinin 6.4 maddəsi (karbon bazarları) üzrə razılaşmanın əldə olunmasıdır. Faktiki olaraq bu əsas hədəf prinsipi 9 ildir ki, kağız üzərində qalmış, 2015-ci ildə Paris razılaşması imzalandıqdan sonra çoxsaylı müzakirələrə baxmayaraq, 6-cı maddə üzrə razılıq əldə olmamışdı. İqlim koalisiyasının Bakıda bu prinsipial xarakter daşıyan maddə üzrə razılaşmaya nail olması Azərbaycanın COP hərəkatında yeni cığır açdığını göstərir.

Azərbaycan COP29-un Sədri kimi digər təşəbbüslərin də həyata keçməsinə nail olub, ölkəmiz tərəfindən dünya iqlim ailəsinə 14 əsas təşəbbüs irəli sürülüb və həmin təşəbbüslərin böyük əksəriyyəti üzrə praktiki işlər icra olunub. COP29-dan əsas gözləntilərin biri dayanıqlı maliyyələşmə arxitekturasının qurulmasıdır. Sammitdə bu istiqamətdə də iradəli təşəbbüslər ortaya qoyuldu və artıq beynəlxalq maliyyə korporasiyaları və bank strukturları iqlim dəyişiklərinin fəsadlarına qarşı mübarizə məqsədilə öz maliyyə töhfələrini artıracağına dair ümidverici bəyanatlar səsləndirdi. Məsələn, Dünya Bankı maliyyə töhfəsini



170 milyarda çatdıracağını bildirib. Bütün bunlar COP29-dan əsas gözlənti olan yeni iqlim maliyyəsi hədəfi üzrə tarixi razılaşmanın əldə olunması üçün COP29-da danışıqlar üçün əla mühit yaradır.

Bundan başqa, indiyə qədər problemlərdən biri kimi həll edilməyən maliyyə şəffaflığı ilə bağlı məsələ də həllini tapmaqdadır. Ötən COP sammitlərində tərəflər bu məsələdə bir araya gələ bilməsə də , Azərbaycanın Sədrliyi dövründə şəffaflıq prinsipi mövzusu da həllini tapıb, “Bakı Qlobal İqlim Şəffaflığı Platforma”sı təsis edilib.

### İqlim maliyyəsi şəffaflığı məsələsi Bakıda həllini tapır

Ümumilikdə, Azərbaycan iqlim ailəsini iqlim dəyişikliyinə qarşı mübarizə hədəfləri çərçivəsində Paris Sazişi və BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri (SDG) üzrə sazişlərdən irəli gələn maliyyə institutlaşması istiqamətində bir araya gətirməkdədir. COP29 gündəliyində ən aktiv mövzu kimi iqlim fəaliyyətinə investisiya yatırmaq təşəbbüslərinin ön plana çıxması da bunu təsdiqləyir. Bu müsbət nəticələrdən biri kimi İqlim Maliyyəsi üzrə Fəaliyyət Fondunun (İMFF) yaradılması bardədə yekdil razılıq da əldə edilib. İnkişaf etməkdə olan ölkələrdə iqlim maliyyələşməsinin mühüm sütunu olan “İqlim Dəyişmələri üzrə İtki və Zərər Fondu”na vəsait ayrılması faktiki start götürməkdədir. Yaxın günlərdə İMFF bərpa olunan enerji sahəsində fəaliyyət göstərən kiçik və orta istehsalçılar üçün gələcək məhsulların satın alınması üzrə sazişə zəmanətlə yanaşı, “yaşıl” sənaye layihələri üçün ilkin kapital itkisinin kompensasiyasını da təmin edəcək.

### Yeni Kollektiv Hədəfə doğru...

Yeri gəlmişkən, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCC) icraçı katibi Saymon Stil və BVF-nin sərəncamçı direktoru Kristalina Georgiyeva, eləcə də beynəlxalq maliyyə institutları və özəl maliyyə təşkilatlarının rəhbər şəxsləri aparılan müzakirələrdə Azərbaycanın iqlim maliyyəsi hədəflərinə çatmaqda təşəbbüskarlığı da yüksək dəyərləndiriblər. Həmin panel müzakirələrdə iqlim dəyişikliyi ilə mübarizədə inkişaf etməkdə olan ölkələrin tələblərinə cavab verəcək ədalətli və ambisiyalı Yeni Kollektiv Kəmiyyət Hədəfinin (NCQG) qəbul ediləcəyinə dair xoş mesajlar verib. NCQG sənədinin qəbul edilməsi bir çox ölkələrlə yanaşı, Azərbaycanın çoxtərəfli inkişaf banklarının resurs bazalarından istifadə etməsinə imkan yaradcaq. Nəticədə bu, iqlim hədəflərinə çatmaqda dayanıqlı maliyyə mexanizmlərinin formalaşmasında mühüm rol oynayacaq.

Sammit qlobal yaşıl icmanın Azərbaycanın alternativ enerji imkanları ilə yerindəcə yaxından tanış olması, bu potensialların üzə çıxarılmasında investorların birgə əməkdaşlıq layihələrinə qərar verməsi baxımından da mühüm fürsət yaradır. Beynəlxalq ekoloji qurumlara və iqlim şirkətlərinə Bakı şəhərindəki və ölkəmizin müxtəlif bölgələrindəki yaşıl resursların mövcud dəyər balansını qiymətləndirmək üçün praktiki imkanlar yaradılıb ki, bu, yaxın vaxtlarda yeni enerji sazişlərinin imzalanacağına dərin ümidlər verir. Tədbirlər çərçivəsində xarici iştirakçılara Azərbaycanın 2030-cu ilədək olan transformativ inkişaf strategiyası və “yaşıl enerji”ni prioritetləri barədə detallı məlumatlar çatdırılıb.

### “Yaşıl sərmayə” tərəfdaşlığı üçün yeni bünövrə...

Qeyd edək ki, COP29 çərçivəsində ölkəmiz bu dövrədək dünyanın bir çox ölkəsi və beynəlxalq təşkilatlarla qurulmuş səmərəli əməkdaşlıq sayəsində “yaşıl enerji” layihələrində sərmayə tərəfdaşlığına da nail olub. Cari ilin ötən 10 ayı ərzində böyükhəcmli “yaşıl sərmayələr”ə dair açar sazişləri imzalanıb, xüsusilə də körfəz ölkələrindən Birləşmiş Ərəb Əmirliklərinin “Masdar”, Səudiyyə Ərəbistanının “ACWA Power” şirkətləri ilə bərpa olunan enerji sektorunda böyükhəcmli sərmayə layihəsinin əsası qoyulub. SOCAR və bp arasında Cəbrayıl rayonunda “Şəfəq” layihəsinin icrasına dair saziş imzalanıb. Eləcə də “Fortescue Future Industries”, “China Gezhouba Group”, “Total Energies”, “Nobel Energy”, “Czech Engineering”, “Baltech” və digər şirkətlərlə bərpa olunan enerji layihələri ilə bağlı əməkdaşlığa başlanılıb.

Azərbaycan COP29 ili çərçivəsində beynəlxalq maliyyə institutları ilə iqlim həlləri üzrə də intensiv əlaqələri artırıb, ətraf mühitin qorunmasını təşviq edən müxtəlif layihələrlə bağlı faydalı müzakirələr aparılıb, bu sahəyə sərmayələrin cəlb edilməsində razılıqlar əldə olunub. Dünya Bankı (DB), Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB), Asiya İnkişaf Bankı (AİB) da COP29 və “yaşıl hidrogen” istehsalında Azərbaycana öz maliyyə dəstəyini göstərəcəyini bəyan edib. Avropa Bankı da bərpa olunan enerji və regional “yaşıl enerji” dəhlizinin həyata keçirilməsində maliyyə donorluğuna razılıq verib. AYİB isə 2027-ci ilədək 8 külək və Günəş elektrik stansiyasının istismara hazırlanmasına kreditlər ayırmaqla bağlı Bakı ilə razılaşıb.

Respublikamız bərpa olunan enerjinin ixracının reallaşması istiqamətində qətiyyətli addımlar atır. Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında “yaşıl enerji”nin ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında saziş imzalanıb. Prezident İlham Əliyevin vurğuladığı ölkəmiz ixrac bazarlarına diqqət yetiririk və Xəzər dənizindən başlayaraq Qara dənizin dibi ilə enerji kabelinin çəkilməsini nəzərdə tutan digər mühüm enerji təhlükəsizliyi layihəsinin həyata keçirilməsi üçün tərəfdaşlarımızla fəal çalışır.

“Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi” adlanan layihəyə əsasən, Avropaya “yaşıl enerji” ixracı gerçəkləşəcək. Azərbaycan bununla Bakı-Tbilisi-Ceyhan neft, TAP qaz kəmərlərinin ardınca, Avropada yeni enerji dəhlizinin müəllifinə çevriləcək.

*E.CƏFƏRLİ*

# Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında əməkdaşlıq memorandumu imzalanıb
















Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti Çin Kommunist Partiyasının (ÇKP) dəvəti ilə Çin Xalq Respublikasında səfərdədir.

Səfər çərçivəsində noyabrın 13-də YAP nümayəndə heyəti ilə ÇKP Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri, nazir Lyu Cyançao arasında görüş keçirilib.

Nümayəndə heyətini salamlayan və ölkəsində görməkdən məmnunluğunu ifadə edən Lyu Cyançao Azərbaycan-Çin münasibətlərinin yüksələn xətt üzrə inkişafının təqdirəlayiq olduğunu vurğulayıb. Bir-birinin maraqlarına hörmət edən, ərazi bütövlüyü və suverenliyini dəstəkləyən iki ölkə arasında əlaqələrin siyasi, iqtisadi, mədəni, humanitar, nəqliyyat-logistika və digər sahələri əhatə etməklə çoxşaxəli xarakter daşıdığını bildirən L.Cyançao Çinin Azərbaycanla qarşılıqlı faydalı əməkdaşlığı genişləndirməkdə maraqlı olduğunu diqqətə çatdırıb.

2024-cü ilin iyul ayında Astanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri Si Cinpinin görüşünə diqqəti cəlb edən L.Cyançao iki dövlət arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamənin imzalanmasının işbirliyinin dərinləşdirilməsi baxımından önəmini qeyd edib. O, Azərbaycan ilə Çin arasında qlobal arenada, xüsusilə də beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın hər iki ölkənin maraqlarının qorunması üçün müstəsna əhəmiyyət daşıdığını bildirib. L.Cyançao Çinin Azərbaycanın müxtəlif platformalarda, o cümlədən BRICS çərçivəsində ikitərəfli və çoxtərəfli əməkdaşlığı inkişaf etdirməsinə dəstək verdiyini qeyd edib.

Çinin Azərbaycanın beynəlxalq əhəmiyyətli təşəbbüslərini təqdir etdiyini söyləyən Lyu Cyançao ölkəmizin qlobal iqlim dəyişikliyinin fəsadlarına qarşı mübarizədə əhəmiyyətli rolunu və dəyərli töhfələrini xüsusi vurğulayıb. O, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdırıb və ölkəsinin də bu tədbirdə geniş nümayəndə heyəti ilə yüksək səviyyədə təmsil olunduğunu ifadə edib.

Qarşılıqlı səfərlərin səmərəli fikir və təcrübə mübadiləsi baxımından önəminə diqqəti cəlb edən L.Cyançao dövlətlər və partiyalar arasında hər bir təmasın əməkdaşlığın genişlənməsinə xidmət etdiyini vurğulayıb. O, Çin Kommunist Partiyasının geniş beynəlxalq əlaqələrə malik olduğunu və Yeni Azərbaycan Partiyası ilə münasibətlərin inkişafına böyük önəm verdiyini bildirib. Ötən il YAP nümayəndə heyətinin Çinə səfərini məmnunluqla xatırlayan Lyu Cyançao səfər çərçivəsində kifayət qədər əhəmiyyətli və məhsuldar görüşlərin keçirildiyini vurğulayaraq "Əminəm ki, YAP nümayəndə heyətinin ölkəmizə budəfəki səfəri də hərtərəfli əməkdaşlığa stimul verəcək. Xüsusilə də, partiyalarımız arasında əməkdaşlıq memorandumunun imzalanması yeni imkanlar və perspektivlər yaradır. Memorandumdan irəli gələn vəzifələrin yerinə yetirilməsi dostluq və tərəfdaşlıq münasibətlərinin inkişafına, prioritetlərin reallaşdırılmasına - ortaq hədəflərin gerçəkləşməsinə xidmət edəcək", - deyə vurğulayıb.

Lyu Cyançao YAP nümayəndə heyətinin İkinci Qlobal Cənub Beyin Mərkəzləri Dialoqunda iştirakının ortaq hədəflər naminə səmərəli müzakirələrin aparılması və gələcək əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsi baxımından böyük önəm kəsb etdiyini vurğulayıb.

Dəvətə, yüksək qonaqpərvərliyə və səmimi qəbula görə rəhbərlik etdiyi nümayəndə heyəti adından minnətdarlıq ifadə edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov dostluq, qarşılıqlı faydalı əməkdaşlıq və strateji tərəfdaşlığa əsaslanan Azərbaycan-Çin münasibətlərinin hər iki ölkənin liderlərinin siyasi iradəsi sayəsində dinamik inkişafa malik olduğunu və mühüm perspektivlər vəd etdiyini söyləyib.

O, Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamənin qəbulunun tarixi əhəmiyyətə malik olduğunu vurğulayaraq hazırda müxtəlif sahələri əhatə edən çoxşaxəli əməkdaşlığın dərinləşdirilməsi üçün əlverişli şəraitin olduğunu diqqətə çatdırıb: "Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Çin Xalq Respublikası və Azərbaycan Respublikasının rəsmi olaraq strateji tərəfdaşlara çevrilməsi böyük nailiyyət və yüksək məsuliyyətdir".

Tahir Budaqov iki ölkənin beynəlxalq müstəvidə əməkdaşlığının əhəmiyyətinə diqqəti cəlb edərək Çinin ölkəmizin BRICS platformasında təmsilçiliyinə və Şanxay Əməkdaşlıq Təşkilatı ilə əlaqələrinin inkişafına dəstəyinin dostluq və etibarlı strateji tərəfdaşlıq nümunəsi olduğunu söyləyib.

Bütün sahələrdə, xüsusilə də innovativ texnologiyalar, "yaşıl iqtisadiyyata" keçid və nəqliyyat-logistika sahəsində işbirliyinin dərinləşdirilməsi üçün geniş imkanlara diqqəti cəlb edən Tahir Budaqov Azərbaycanın Çinin "Bir kəmər, bir yol" layihəsinə ilk dəstək verən ölkələrdən biri kimi bu layihə və Orta Dəhliz çərçivəsində əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu vurğulayıb. O, Azərbaycanın təşəbbüsü olan Zəngəzur dəhlizinin reallaşdırılmasının bir çox dövlətlərin mənafeyinə xidmət edən qlobal xarakterli yeni əməkdaşlıq platformasının formalaşması baxımından əhəmiyyətini vurğulayıb.

Azərbaycanın öz ərazi bütövlüyü və suverenliyini bərpa etməsi nəticəsində yeni geostrateji reallıqların yarandığını söyləyən YAP Sədrinin müavini hazırda regionda mövcud olan vəziyyət, işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri barədə ətraflı məlumat verib. O, Azərbaycanın beynəlxalq hüququn təməlində dayanan suverenlik və ərazi bütövlüyü prinsiplərinə böyük önəm verdiyini, beynəlxalq münasibətlər sisteminin subyekti olan ölkələrin, o cümlədən Çinin ərazi bütövlüyünə, eləcə də Vahid Çin prinsipinə dəstəyini daim ifadə etdiyini nəzərə çatdırıb. YAP Sədrinin müavini Çinin Azərbaycanın ədalətli mövqeyini dəstəkləməsini də minnətdarlıqla vurğulayıb.

Azərbaycanın bəşəriyyəti narahat edən qlobal problemlərin həllində yaxından iştirak etdiyini, o cümlədən iqlim dəyişmələrinə qarşı fəal mübarizə mövqeyi sərgilədiyini söyləyən Tahir Budaqov Prezident İlham Əliyevin Sərəncamı ilə 2024-cü ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan olunduğunu və ölkəmizin hazırda COP29-a uğurla ev sahibliyi etdiyini diqqətə çatdırıb. O, belə bir mötəbər tədbirin Azərbaycanda keçirilməsinin respublikamıza beynəlxalq müstəvidə böyük etimadın daha bir bariz nümunəsi olduğunu vurğulayaraq Çinin bu məsələdə ölkəmizə dəstəyinə görə minnətdarlıq ifadə edib.

Azərbaycan-Çin münasibətlərinin inkişafında iki ölkənin hakim partiyalarının əməkdaşlıq əlaqələrinin rolundan bəhs edən Tahir Budaqov qeyd edib ki, iki ölkə arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamədə əksini tapan başlıca məsələlərdən biri də partiyalararası əlaqələrin gücləndirilməsidir. O bildirib ki, qarşılıqlı səfərlər partiyalararası münasibətlərin bütün istiqamətlərdə inkişafına təkan verir. Son illərdə hakim partiyalar arasında təmasların artması və dialoqun güclənməsinin önəmini qeyd edən YAP Sədrinin müavini "Sizin də qeyd etdiyiniz kimi, ötən il YAP nümayəndə heyətinin Çinə səfəri çərçivəsində istər Azərbaycan-Çin münasibətləri, istərsə də Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında çoxşaxəli əməkdaşlığa dair ətraflı fikir mübadiləsi aparıldı. Həmin səfər ikitərəfli əlaqələrin inkişafında mühüm bir amil kimi xüsusi əhəmiyyətə malikdir. Bu işbirliyinin davamı kimi bu gün Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında əməkdaşlıq memorandumunun imzalanması isə əlamətdar hadisə kimi müstəsna önəm daşıyır. Memorandum qarşılıqlı hörmət və etimada əsaslanan əməkdaşlığın siyasi və hüquqi əsaslarını möhkəmləndirməklə partiyalar arasında münasibətlərin keyfiyyətcə yeni mərhələyə yüksəlməsini təmin edəcək. Əminik ki, birlikdə görəcəyimiz işlər həm partiyalar, həm də ölkələrarası əlaqələrin inkişafına təkan verəcək",- deyə bildirib.

Görüş zamanı bir sıra Qərb ölkələrinin müstəqil siyasət yürüdən dövlətlərə qarşı ikili standartlara əsaslanan, beynəlxalq hüquq normalarına zidd qərəzli siyasətinin beynəlxalq təhlükəsizlik və əməkdaşlığa təhdid yaratdığı qeyd olunaraq bu hallara qarşı qətiyyətli mübarizənin önəmi vurğulanıb, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər barədə müzakirələr aparılıb.

Sonra Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında əməkdaşlıq memorandumunun imzalanması mərasimi olub. Memorandumu YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov və ÇKP Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri, nazir Lyu Cyançao imzalayıblar.

Noyabrın 13-də YAP nümayəndə heyəti, həmçinin İkinci Qlobal Cənub Beyin Mərkəzləri Dialoqu iştirakçılarının şərəfinə verilən ziyafətə qatılıb.

Qeyd edək ki, YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyətinə partiyanın İdarə Heyətinin üzvləri, millət vəkilləri Hikmət Məmmədov, Pərvin Kərimzadə, Elnarə Akimova, Ülviyyə Həmzəyeva, Azər Badamov, YAP Təftiş Komissiyasının sədri, millət vəkili Sevinc Hüseynova, Təftiş Komissiyasının üzvləri, millət vəkilləri Elman Nəsirov, Vüqar İskəndərov, Naqif Həmzəyev, YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov, YAP Gənclər Birliyinin üzvü, millət vəkili Səbinə Xasayeva, partiyanın Mərkəzi Aparatının şöbə müdirləri və yerli təşkilat sədrləri daxildir.

# YAP nümayəndə heyəti Qlobal Cənub Beyin Mərkəzlərinin İkinci Dialoqunda iştirak edib

Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyətinin Çin Xalq Respublikasına səfəri davam edir.

Səfər çərçivəsində noyabrın 14-də nümayəndə heyəti Qlobal Cənub Beyin Mərkəzlərinin İkinci Dialoqunun "Qlobal Cənub: bərabərlik, açıqlıq, əməkdaşlıq" mövzusunda keçirilən açılış mərasimi və plenar iclasında iştirak edib.









Çin Kommunist Partiyası Mərkəzi Komitəsi (ÇKP MK) Beynəlxalq əlaqələr şöbəsi müdirinin müavini, BRICS Beyin Mərkəzləri Əməkdaşlığının Çin Şurasının prezidenti Çen Jounun moderatorluğu ilə keçirilən tədbirdə ÇKP Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri, nazir Lyu Cyançao, ÇKP Szyansu vilayət komitəsinin katibi, Szyansu vilayəti Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin sədri Sin Çansin açılış nitqləri ilə çıxış ediblər. Xalqlar və dövlətlərə qarşı çoxsaylı təhdidlərin mövcud olduğu və qlobal kataklizmlərin hökm sürdüyü hazırkı vəziyyətdə Qlobal Cənub ölkələrinin dünyada sülh, təhlükəsizlik və dayanıqlı sosial-iqtisadi inkişafın təmin edilməsi, həmrəylik və qarşılıqlı anlaşma şəraitində əməkdaşlığın həyata keçirilməsi üçün səylərinin birləşdirilməsi və ardıcıl fəaliyyət göstərilməsinin əhəmiyyətindən bəhs edilib. Qlobal Cənub Beyin Mərkəzlərinin İkinci Dialoqunun Çin və tərəfdaş ölkələri bir araya gətirərək qlobal problemlərin həlli yollarının axtarılması, səmərəli fikir və təcrübə mübadiləsinin aparılması, yeni ideyaların irəli sürülməsi və aktual çağırışlardan irəli gələn təşəbbüslərin reallaşdırılması üçün son dərəcə önəmli platforma olduğu diqqətə çatdırılıb.

Plenar sessiyada nitq söyləyən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Qlobal Cənub Beyin Mərkəzlərinin İkinci Dialoqunda çıxış etməkdən böyük məmnunluq duyduğunu diqqətə çatdırıb: "Bu gün burada, Nankində bir araya gəlməyimiz qlobal prioritetlərin formalaşmasında, bərabərliyə və inklüzivliyə əsaslanan dünyanın yaranmasında Qlobal Cənubun artan rolunu və təsirini əks etdirir".

YAP Sədrinin müavini bildirib ki, dünya əhalisinin yarıdan çoxunu təmsil edən Qlobal Cənub özündə həm də ciddi siyasi və nəhəng iqtisadi resursları cəmləşdirir: "Qlobal Cənub Asiya, Afrika, Latın Amerikası və Karib hövzəsi boyunca yerləşən, xalqlarının müxtəlifliyi, mədəniyyətlərinin özünəməxsusluğu, siyasi və iqtisadi sistemlərinin rəngarəngliyi ilə xarakterizə olunan bir çox dövlətləri əhatə edən bir coğrafiyadır. Bu platformada təmsil olunan əksər ölkələrin xalqlarını keçmişdə məruz qaldıqları və bəzilərinə qarşı yeni simada davam edən müstəmləkəçilik və istismar siyasəti birləşdirir. Bununla belə, Qlobal Cənub son dövrlərdə yeni güc mərkəzinə, iqtisadi inkişafın, texnoloji innovasiyaların və sosial tərəqqinin lokomotivinə çevrilmişdir".




Tahir Budaqov vurğulayıb ki, mövcud beynəlxalq münasibətlər sisteminin böhranı şəraitində qlobal problemlərin artdığı müasir dünyada qarşılıqlı hörmət, ədalət və ortaq məqsədlərə əsaslanan yeni əməkdaşlıq modelinin formalaşması üçün Qlobal Cənub ilə Qlobal Şimalın konstruktiv işbirliyi olduqca vacibdir: "Bu kontekstdə Çin Xalq Respublikasının rolu xüsusilə diqqətəlayiqdir. Çinin irəli sürdüyü və bir çox ölkələr kimi Azərbaycanın da dəstəklədiyi "Bir kəmər, bir yol" layihəsi Qlobal Cənubla Şimalın qarşılıqlı faydalı tərəfdaşlığını xeyli genişləndirmək potensialına malikdir. Bu layihə qlobal ticarətin ənənəvi marşrutlarını yenidən canlandırmaqla bərabər, qlobal iqtisadiyyatdan tarixən təcrid olunmuş regionlara da infrastrukturun, əlaqələrin inkişafı, rifah səviyyəsinin artırılması üçün yeni imkanlar yaradır. Bu baxımdan, qədim tarixi köklərə söykənən Azərbaycan-Çin münasibətləri bərabərlik, qarşılıqlı faydalılıq və etibarlı tərəfdaşlığın parlaq nümunəsidir. Təsadüfi deyil ki, Çin Azərbaycanın BRICS təşkilatına daxil olmaq təşəbbüsünü dəstəkləyən ilk ölkələrdəndir. Qlobal Cənubun yüksəlişinin və yeni dünya nizamının formalaşmasının təzahürlərindən olan BRICS bərabərlik, açıqlıq və əməkdaşlıq prinsiplərinə söykənən ədalətli beynəlxalq münasibətlər sisteminin formalaşmasına töhfə verməkdədir".

YAP Sədrinin müavini əlavə edib ki, bugünkü dialoqu təşkil etməklə Çin inkişaf etməkdə olan ölkələrin səsini gücləndirmək, dünyada qarşılıqlı anlaşmanı təşviq etmək və hər kəsə faydalı olan strateji tərəfdaşlıq üçün zəmin yaratmağa sadiqliyini bir daha nümayiş etdirir: "Qlobal Cənub ölkələri dayanıqlı iqtisadi inkişaf, rəqəmsal transformasiya və sosial tərəqqi üçün yeni standartlar yaratmaq potensialına malikdir. Biz əməkdaşlıq edərək və həmrəylik nümayiş etdirərək bərabərsizlik, təcridetmə və haqsız rəqabət kimi problemləri həll etməklə yanaşı, daha balanslı və ədalətli beynəlxalq münasibətlər sisteminin formalaşmasına töhfə verə bilərik. Asiya ilə Avropanın kəsişməsində, Şərq və Qərb sivilizasiyalarının qovşağında yerləşən Azərbaycan Qlobal Cənub ilə Qlobal Şimal arasında körpü rolunu oynamaq missiyasını həm milli mənafelər, həm də ümumbəşəri maraqlar baxımından tarixi imkan və zərurət kimi dəyərləndirir. Ölkəmizin unikal coğrafi mövqeyi bizə birləşdirici qüvvə kimi çıxış etməyə, müxtəlif regionlar arasında dialoq və əməkdaşlığı təşviq etməyə imkan verir. Azərbaycan regionda əməkdaşlığı gücləndirən, tərəfdaşlığı inkişaf etdirən beynəlxalq əhəmiyyətli enerji və logistika layihələrinin təşəbbüskarı və əsas icraçısıdır. Ölkəmizin beynəlxalq əməkdaşlığa verdiyi töhfələr suverenlik və bərabərliyə hörmət əsasında şəffaf və etibarlı tərəfdaşlığa sadiqliyimizi nümayiş etdirir".

Tahir Budaqovun sözlərinə görə, BMT Təhlükəsizlik Şurasının uzun illər kağız üzərində qalan qətnamələrinin icrasını öz gücü hesabına təmin edərək ərazi bütövlüyünün bərpası ilə çoxillik münaqişəyə son qoyan Azərbaycan təkcə öz suverenliyinin deyil, bütün dünyada sülhün, ədalətin, bərabərliyin müdafiəçisi kimi mövqeyini aydın və qətiyyətlə ortaya qoyur. "Multikulturalizm və dini tolerantlığın ardıcıl tərəfdarı olan Azərbaycan 2020-2023-cü illərdə Qoşulmama Hərəkatına sədrliyi dövründə bunu əyani şəkildə nümayiş etdirmişdir və bu gün də müxtəlif siyasi və humanitar forumların təşəbbüskarı və təşkilatçısı kimi çıxış etməkdə davam edir. Bildiyiniz kimi, hazırda Azərbaycanda dünyanın hər yerindən çoxsaylı dövlət və hökumət başçılarının, yüksəksəviyyəli rəsmi şəxslərin, ekspertlərin, elmi dairələrin və kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirakı ilə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası keçirilir. Bu, bəşəriyyəti narahat edən qlobal problemlər ətrafında fikir mübadiləsi aparmaqla onların həlli yollarını tapmaq, ideya və təcrübə mübadiləsini həyata keçirmək məqsədilə beynəlxalq əməkdaşlığın möhkəmlənməsinə Azərbaycanın növbəti töhfəsidir. COP29 tədbiri həm də qlobal kataklizmlərlə mübarizədə səylərin birləşdirilməsi məqsədilə Qlobal Cənub və Qlobal Şimal arasında səmərəli dialoq üçün platformadır.

Bugünkü tədbirdə aparılan müzakirələrin beynəlxalq münasibətlərin bərabərlik, açıqlıq və əməkdaşlıq prinsipləri əsasında qurulması yönündə təşəbbüslərə töhfə verəcəyinə və faydalı nəticələrlə yadda qalacağına inanıram. Hər birinizə gələcək fəaliyyətinizdə uğurlar arzulayıram",- deyə YAP Sədrinin müavini əlavə edib.

Tədbirin sonunda Qlobal Cənub Beyin Mərkəzlərinin Alyansının yaradılması haqqında qərar qəbul olunub.

# YAP Sədrinin müavini ilə Szyansu vilayəti Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsi sədrinin müavini arasında görüş keçirilib

Noyabrın 14-də Çində səfərdə olan YAP nümayəndə heyətinin bu ölkənin Szyansu vilayəti Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsi sədrinin müavini Çjou Quançji ilə görüşü keçirilib.

YAP nümayəndə heyətini ölkəsində görməkdən məmnunluğunu ifadə edən Ç.Quançji əvvəlcə Szyansu vilayəti haqqında ətraflı məlumat verib. O, Azərbaycan ilə Çin arasında çoxşaxəli münasibətlərin strateji xarakter daşıdığını və uğurla inkişaf etdiyini bildirib. Azərbaycanın Çin Xalq Respublikasının dostu və Cənubi Qafqazda ən böyük ticarət tərəfdaşı olduğunu söyləyən Çjou Quançji hər iki ölkənin bir-birinin maraqlarına hörmətlə yanaşdığını və strateji tərəfdaş kimi əməkdaşlığı dərinləşdirməkdə maraqlı olduğunu bildirib.





Parlamentlərarası əlaqələrin inkişafının önəmindən söz açan sədr müavini iki dövlətin qanunverici orqanlarında dostluq qruplarının fəaliyyət göstərməsinin Azərbaycan-Çin münasibətlərinin inkişafına mühüm töhfə verdiyini diqqətə çatdırıb.

Hakim partiyalar arasındakı məhsuldar dialoq şəraitində əlaqələrin genişləndirilməsinin əhəmiyyətindən bəhs edən Çjou Quançji Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası (ÇKP) arasında əməkdaşlıq memorandumunun imzalanmasının dostluq və tərəfdaşlıq əlaqələrinin əsaslarını möhkəmləndirəcəyinə əminliyini ifadə edib. O diqqətə çatdırıb ki, memorandumdan irəli gələn vəzifələrin icra olunması uğurlu nəticələr verməklə qarşılıqlı faydalı işbirliyini daha da gücləndirəcək.

Səmimi qəbula və yüksək qonaqpərvərliyə görə təşəkkürünü bildirən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri, Çin Kommunist Partiyasının Baş katibi Si Cinpinin iki ölkə arasında əlaqələrin inkişafına xüsusi önəm verdiklərini, strateji tərəfdaşlığa əsaslanan münasibətlərin genişləndirilməsi istiqamətində məqsədyönlü addımlar atıldığını vurğulayıb.

Asiya ilə Avropanın kəsişməsində olduqca mühüm coğrafi-strateji mövqedə yerləşən, beynəlxalq dialoq və işbirliyi məkanı olan Azərbaycanın öz ərazi bütövlüyü və suverenliyini bərpa etməklə yaratdığı yeni reallıqların regionda sülh, sabitlik, təhlükəsizlik, inkişaf və əməkdaşlığa xidmət etməklə yanaşı, həm ölkəmizin, həm də tərəfdaş dövlətlərin qarşısında mühüm perspektivlər açdığını söyləyən YAP Sədrinin müavini respublikamızın dövlətlərarası münasibətlərin konstruktiv müstəvidə inkişafının tərəfdarı olduğunu bildirib.

Azərbaycan-Çin əməkdaşlığının genişləndirilməsində həm hakim partiyalar, həm də parlamentlər arasındakı səmərəli əlaqələrin mühüm rol oynadığını bildirən Tahir Budaqov qeyd edib ki, YAP ilə ÇKP-nin fəal dialoqu Azərbaycan-Çin strateji tərəfdaşlığı münasibətlərinin mühüm tərkib hissəsi kimi böyük önəmə malikdir: "Hakim partiyalar arasında imzalanan əməkdaşlıq memorandumu çərçivəsində görüləcək işlər həm partiyalarımız, həm də ölkələrimiz üçün faydalı olmaqla müştərək maraqlarımızı təmin edəcək".





Azərbaycanın regionlarının geniş potensiala və dinamik inkişafa malik olduğunu qeyd edən YAP Sədrinin müavini iki ölkənin bölgələri arasında da əməkdaşlığın perspektivli olduğunu, bu məsələnin xüsusi diqqət mərkəzində saxlanılmasının əhəmiyyətini diqqətə çatdırıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə müzakirələr aparılıb.

Noyabrın 14-də YAP nümayəndə heyəti "Keyuan" intellektual elm və texnologiya şirkətini də ziyarət edib. Ziyarətçilər sənayenin müxtəlif sahələrində tətbiq edilən innovasiyalar barədə məlumatlandırılıblar.

# TDT ölkələrinin “Nazirlər Bəyannaməsi”

## Təşkilata üzv ölkələr iqlim dəyişikliklərinə qarşı mübarizədə həmrəylik nümayiş etdirir

Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29)türk dövlətləri də fəal təmsil olunur. Bu da təsadüfi deyil. Son illər türk dövlətləri arasında bütün sahələr üzrə əlaqələr əhəmiyyətli dərəcədə genişlənib.

Ümumiyyətlə, tarixin bütün dönəmlərində türklər özlərinin qüdrəti, gücü, zəngin dövlətçilik ənənələri ilə seçilmiş, dünyanın ən üstün dəyərlərə malik sivilizasiyalarından birinə sahib olublar. Türk sivilizasiyası dedikdə bəşəriyyətin inkişafına saysız-hesabsız töhfələr vermiş, qədim mədəniyyətə, incəsənətə, hərtərəfli elmə və biliyə, həmçinin sağlam gücə malik olan sivilizasiya nəzərdə tutulur. Bəşər sivilizasiyası tarixində özünəməxsus yeri olan türk sivilizasiyası əsrlər boyu şərəfli yol qət edərək hazırkı inkişaf səviyyəsinə çatıb. Dünyanın ikili standartlara əsaslanan siyasətinin davam etdiyi bir dövrdə Türk dünyasının birliyinin zəruriliyi özünü daha aydın şəkildə göstərir.

Xalqımız böyük Türk dünyasının önəmli bir parçası olaraq fundamental dəyərlərə malik zəngin türk sivilizasiyasından faydalanmaqla yanaşı, bu sivilizasiyaya öz töhfəsini verməkdən böyük qürur duyur. Azərbaycan Türk Dövlətləri Təşkilatına (TDT) üzv olan ölkələrlə qardaşlıq münasibətlərinə malikdir. Türk dövlətlərini birləşdirən ortaq soy-kök, tarix, mədəniyyət və milli dəyərlər ölkələrimizin qarşılıqlı fəaliyyətinin əsasını təşkil edir.Cari ilin sentyabrında isə Latın qrafikalı, 34 hərfdən ibarət Ortaq Türk Əlifbasının qəbul edilməsi türk xalqlarının linqvistik mirasını qorumaqla yanaşı, onlar arasında qarşılıqlı anlaşmanı, eləcə də əməkdaşlığı daha da inkişaf etdirəcək. Həmin ortaq əlifbanın qəbulu türk xalqları arasında qarşılıqlı anlaşmanın və əməkdaşlığın daha da inkişafına töhfə vermək məqsədi daşıyır. Qəbul




edilən əlifba ilə türk xalqları elmdən iqtisadiyyata, siyasətdən mədəniyyətə qədər bir çox sahələrdə daha da yaxınlaşacaq.

Azərbaycan türk dövlətləri ilə əlaqələrini ən yüksək formada inkişaf etdirməkdə və vahid türk ailəsinə daha da yaxın olmaqda maraqlıdır və bu istiqamətdə fəaliyyətini uğurla davam etdirir. Türk Dövlətləri Təşkilatına üzv ölkələr arasında yaxın dostluq və qardaşlıq əlaqələrinin olması təşkilatın inkişaf perspektivlərini şərtləndirən əsas amillərdən biridir.TDT-yə üzv olan ölkələr iqlim dəyişikliklərinə qarşı mübarizədə də həmrəylik nümayiş etdirir. Belə ki, Bakıda keçirilən COP29 çərçivəsində noyabrın 14-də Özbəkistan Respublikasının pavilyonunda Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin ekologiya və ətraf mühit üzrə nazirlərinin görüşü baş tutub. Görüşdə Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə, Özbəkistanın müvafiq nazirliklərinin rəhbərləri və TDT-nin Baş katibi iştirak ediblər. Nazirlər və TDT-nin Baş katibi BMT-nin hazırkı iqlim gündəliyinə tam dəstəyini ifadə ediblər və COP29-un ilk günlərində qeyd olunan məqsədlərə əməl olunmasına dair öhdəliklərini təsdiqləyiblər.

TDT nazirlər səviyyəsində ətraf mühit və dayanıqlı inkişaf sahəsində birgə mövqe, ortaq fəaliyyət planına imza atıblar.İştirakçılar təşkilata üzv dövlətlərin nazirlərinin Bəyannaməsini imzalayıblar.2024-cü ilin iyulunda Şuşada TDT-nin Dövlət başçılarının Zirvə görüşündə imzalanmış “Qarabağ Bəyannaməsi”nin davamı olaraq TDT-yə üzv dövlətlər nazirlər səviyyəsində birgə ekoloji problemlərin həlli və dayanıqlı inkişafın təmin edilməsi istiqamətində əməkdaşlığı gücləndirmək niyyətlərini təsdiqləyiblər.

Görüşdə ətraf mühit sahəsində ortaq çağırışların həllinə nail olmaq üçün fikir mübadiləsi aparılıb, dayanaqlı inkişafı təşviq edən önəmli addımların vacibliyi, regional və beynəlxalq ekoloji problemlərin həllində birgə yanaşmanın əhəmiyyəti vurğulanıb.Eyni zamanda, TDT-yə üzv dövlətlər birgə mövqe və ortaq fəaliyyət planı yaratmaq istiqamətində perspektivləri müəyyənləşdiriblər.Tərəflər dayanıqlı və davamlı gələcək naminə aktiv əməkdaşlığın davam etdirilməsi niyyətlərini ifadə ediblər.

Ətraf mühit və dayanıqlı inkişaf sahəsində COP29-da səslənən planetar çağırışların və təşəbbüslərin həlli istiqamətində TDT tərəfindən birgə fəaliyyət haqqında “Nazirlər Bəyannaməsi”nin Bakıda imzalanması COP29-a ev sahibliyi edən Azərbaycanın beynəlxalq və regional səviyyədəki liderliyini daha da möhkəmləndirir.

*Nardar BAYRAMLI*

# Ermənistan törətdiyi cinayətlərə görə cavab verəcək

## Beynəlxalq Ədalət Məhkəməsi Azərbaycanın Ermənistana qarşı hüquqi iddiaları üzrə qərar qəbul edib

Ermənistan 30 ilə yaxın davam etmiş işğalçı siyasət nəticəsində çoxsaylı cinayətlər törədib. Azərbaycan dövləti Ermənistanın bu cinayətlərinin dünyada ifşa olunması istiqamətində ardıcıl olaraq tədbirlər həyata keçirməkdədir. Hazırda Ermənistanın törətdiyi cinayətlər sənədləşdirilir. Belə ki, törədilən cinayətkar əməllərlə bağlı hüquqi prosedurlara başlanılıb. İrqi ayrı-seçkilik, mülki əhali, infrastruktur, dini, tarixi və mədəni abidələrə dəymiş ziyan və s. bağlı müvafiq təhlillər aparılır.

## Ermənistan beynəlxalq məhkəmələr qarşısında

Ermənistan işğal dövründə humanitar hüquq normalarının kobud şəkildə pozulması hallarına yol verib. Hələ işğal dövründə Azərbaycanın təkidi ilə ATƏT-in iki faktaraşdırıcı missiyası erməni əsarətində olan torpaqlarımızda monitorinq aparmışdılar. Həmin missiyalar Ermənistanın qanunsuz əməllərini, cinayətlərini öz hesabatlarında əks etdirməyə məcbur olmuşdular. Çünki bu cinayətləri inkar etmək mümkün deyildi. 44 günlük Vətən müharibəsində torpaqlarımız işğaldan azad olunduqdan sonra həmin ərazilərə xarici ekspertlərin, diplomatların, jurnalistlərin səfərləri təşkil edilir. Onlar Ermənistanın hərbi cinayətlərinin - yaşayış məntəqələrinin tam dağıdılmasının, təbiətə vurulan ziyanın, qeyri-qanuni məskunlaşmanın şahidi oldular. Bundan əlavə, ərazilərimizin kütləvi surətdə minalarla çirkləndirilməsi də Ermənistanın cinayətləri sırasındadır.

Dövlətimiz bütün bunlarla bağlı bir sıra məhkəmələrə, o cümlədən Beynəlxalq Ədalət Məhkəməsinə müraciət edib. Artıq Beynəlxalq Ədalət Məhkəməsi daha bir müraciətlə bağlı qərarını elan edib. Azərbaycanın Xarici İşlər Nazirliyi İrqi Ayrı-seçkiliyin Bütün Formalarının Ləğv Edilməsi haqqında Beynəlxalq Konvensiyanın tətbiqi ilə bağlı iş üzrə Azərbaycan və Ermənistan tərəfindən qaldırılan ilkin etirazlara dair Beynəlxalq Ədalət Məhkəməsinin 12 noyabr 2024-cü il tarixli qərarlarına münasibət bildirib.



## XİN: Bu, Azərbaycanın Ermənistana qarşı iddia qaldırdığı yeganə hüquqi platforma deyil

Məlumatda qeyd olunub ki, Beynəlxalq Ədalət Məhkəməsi azərbaycanlılara qarşı törədilən kütləvi insan hüquqları pozuntuları ilə əlaqədar Azərbaycanın Ermənistana qarşı davam edən beynəlxalq hüquqi iddiaları üzrə qərar qəbul edib: “Azərbaycan onilliklər ərzində bir milyondan çox azərbaycanlıya qarşı sistemli şəkildə etnik təmizləmə həyata keçirdiyinə görə Ermənistanı məsuliyyətə cəlb etmək istiqamətində fəaliyyət göstərib. Beləliklə, bu səylər nəticəsiz qalmayıb: Ermənistanın onilliklər boyunca Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisini işğalda saxladığı müddətdə həyata keçirdiyi etnik təmizləmə və digər qeyri-qanuni əməllər bundan sonra Məhkəmə tərəfindən mahiyyəti üzrə ətraflı şəkildə araşdırılacaq”. Bundan əlavə, Məhkəmə haqlı olaraq Ermənistanın mina və gizli mina tələləri yerləşdirməsi təcrübəsinə dair iddiaların qərarda istisna olunması cəhdlərini rədd edib. Ermənistanın mina təhdidi nəticəsində sayının indiyədək faciəvi şəkildə artdığı qurbanlar üçün ədalətin təmin edilməsi müstəsna əhəmiyyət kəsb edir. Son olaraq, 10 noyabr tarixində daha bir Azərbaycan vətəndaşı mina partlayışı nəticəsində xəsarət alıb. Yaşayış ərazilərinin minalarla hədəfə alınması günahsız mülki insanların həyatını təhlükəyə atmaqla yanaşı, həmçinin Azərbaycanın əldə olunmasına sadiq qaldığı sülh səzişini təhdid altında qoyur.

Azərbaycanın ilkin etirazlarına gəlincə, Beynəlxalq Ədalət Məhkəməsinin Ermənistanın irqi ayrı-seçkiliyə dair yalan iddiaları ilə bağlı faktların və dəlillərin mahiyyəti üzrə tam təhlili hüququnu özündə saxlaması əhəmiyyət kəsb edir. “Azərbaycan dəlillərin araşdırılmasının beynəlxalq hüququn heç bir pozuntusuna yol verilmədiyini göstərəcəyinə əmindir. Beynəlxalq Ədalət Məhkəməsinin Azərbaycanın Ermənistana qarşı iddia qaldırdığı yeganə hüquqi platforma olmadığı da qeyd edilməlidir. Azərbaycan, həmçinin digər beynəlxalq hüquq forumlarda Ermənistanın işğal dövrü zamanı ətraf mühitin və enerji infrastrukturunun dağıdılması da daxil olmaqla, bir sıra digər sahələrdə beynəlxalq hüququ pozmasına dair kompensasiya və maliyyə təzminatının qarşılanması istiqamətində fəaliyyət göstərir. Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin onilliklər boyu işğalı və əlaqədar münaqişələr zamanı beynəlxalq insan hüquqlarının çoxsaylı pozuntularına görə Ermənistanın məsuliyyətə cəlb edilməsi üçün səylərimizi davam etdirəcəyik”,-deyə XİN-in məlumatında vurğulanıb.

## Ombudsman: Beynəlxalq Ədalət Məhkəməsinin qərarı təqdirəlayiqdir

Qeyd edək ki, İnsan hüquqları üzrə müvəkkil (ombudsman) Səbinə Əliyeva da Beynəlxalq Ədalət Məhkəməsinin Azərbaycanın Ermənistana qarşı irəli sürdüyü beynəlxalq hüquqi iddialarına, o cümlədən Ermənistanın mina təhdidi ilə əlaqədar faktlara baxmaq qərarına münasibət bildirib. Ombudsman Ermənistanın uzun illər ərzində Azərbaycana qarşı yürütdüyü işğalçılıq və etnik təmizləmə siyasəti nəticəsində bir milyondan çox azərbaycanlının beynəlxalq hüquqi sənədlərdə təsbit olunmuş fundamental hüquq və azadlıqlarının tapdandığını, beynəlxalq hüququn və beynəlxalq humanitar hüququn norma və prinsiplərinin kobud şəkildə pozulduğunu, müharibə cinayətləri törədildiyini vurğulayıb. Onun sözlərinə görə, azərbaycanlıların onilliklər boyunca davamlı olaraq pozulmuş hüquq və azadlıqlarının bərpası istiqamətində beynəlxalq səviyyədə atılan hüquqi addımlar ədalətin təmin olunması baxımından olduqca əhəmiyyətlidir.

İnsan hüquqları üzrə müvəkkil Beynəlxalq Ədalət Məhkəməsinin Ermənistan tərəfinin etirazlarına baxmayaraq, Azərbaycanın bu ölkəyə qarşı hüquqi iddiasına, habelə Ermənistanın mina terroru ilə əlaqədar faktlara mahiyyəti üzrə baxmaq qərarını təqdirəlayiq hesab edib. O, Ermənistanın işğal müddətində və daha sonra ərazilərimizdə mina və mina tələlərinin yerləşdirilməsi ilə bağlı Azərbaycan tərəfinin haqlı iddialarının məhkəmənin yurisdiksiyasından çıxarmaq cəhdlərinin məhkəmə tərəfindən rədd edilməsini ədalətin bərpa olunması istiqamətində atılan mühüm addım kimi qiymətləndirib.

*Nardar BAYRAMLI*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi” istiqaməti üzrə hazırlanmışdır**

# Qarabağda sahibkarlıq mühiti...

## Bütün imkanlar yaradılıb!

44 günlük Vətən müharibəsindən sonra işğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsi, Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bərpa-quruculuq işləri, yeni infrastrukturun yaradılması istiqamətində görülən işlər burada sahibkarlıq fəaliyyəti üçün əlverişli imkanlar yaradıb. Düşmənin 30 il ərzində xarabalığa çevirdiyi, daşı daş üstdə qoymadığı torpaqlarımızda həyat yenidən canlanır, insanların, xüsusilə sahibkarların qurub-yaratmaq həvəsi artır. Qarabağ və Şərqi Zəngəzurun bərpasında, sosial-iqtisadi həyatın canlanmasında sahibkarlar mühüm rol oynayırlar. Bu da təsadüfi deyil. Çünki dövlətimiz burada iş görmək istəyən bütün yerli və xarici biznes nümayəndələri üçün hərtərəfli şərait yaradıb.

**Ötən il 3 milyard manat ayrılıb**

İşğaldan azad olunmuş ərazilərin bərpası, bu torpaqlarda həyatın əvvəlki məcrasına qaytarılması Azərbaycan dövlətinin qarşısında duran prioritet məsələdir. Prezident İlham Əliyev azadolunmuş ərazilərin iqtisadi reinteqrasiyasına böyük diqqət yetirir. Azad olunmuş ərazilərdə aparılan bərpa və quruculuq işləri iqtisadi və social inkişaf üçün yeni imkanlar açıb. Regionda biznesin inkişafı üçün yaradılan şərait, dövlət-sahibkar işbirliyi müstəvisində yeni layihələr reallığa çevrilib.

Təsadüfi deyil ki, hazırda Qarabağ və Şərqi Zəngəzurda əsas investor Azərbaycan dövlətidir. Ötən müddətdə bütün mənbələr hesabına Qarabağda bərpa işlərinə 6,4 milyard manat vəsait xərclənib. 2023-cü ilin dövlət büdcəsindən isə daha 3 milyard manat ayrılıb. Bununla belə, dövlətin yaratdığı əlverişli biznes mühiti, bir sıra vergi güzəştləri, eləcə də infrastrukturun bərpası istiqamətində görülən işlər özəl sektoru da bu ərazilərdə iş görməyə sövq edir.

**Statistik rəqəmlər...**

Bu ilin 1 oktyabr tarixinə olan məlumata əsasən, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında 5005 mikro, kiçik, orta və iri sahibkarlıq subyekti, 93 min 386 fərdi sahibkar fəaliyyət göstərib.

Dövlət Statistika Komitəsinin məlumatına görə, mikro sahibkarlıq subyektlərinin sayı Qarabağ iqtisadi rayonu üzrə 3 min 875, Şərqi Zəngəzur iqtisadi rayonu üzrə 851 olub. Bu da ölkə üzrə ümumi sahibkarlıq subyektlərinin müvafiq olaraq 2,2 faizi və 0,5 faizi deməkdir.



İndiyədək Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları üzrə 240 kiçik, 28 orta və 11 iri sahibkarlıq subyekti qeydə alınıb. Ötən ayın əvvəlinə Qarabağ iqtisadi rayonunda 87 min 510, Şərqi Zəngəzur iqtisadi rayonunda isə 5 min 876 fərdi sahibkar fəaliyyət göstərib.

**Torpaqlar müsabiqə vasitəsilə icarəyə veriləcək**

İşğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatı təyinatlı torpaqlar sahibkarlıq subyektlərinə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurumun müəyyənləşdirdiyi qaydada investisiya müsabiqələri vasitəsilə icarəyə veriləcək. Bu məsələ parlamentin noyabrın 7-də keçirilən plenar iclasının gündəliyinə üçüncü oxunuşda daxil edilmiş “Torpaq icarəsi haqqında” qanun layihəsinə təklif edilən dəyişikliklərdə öz əksini tapıb.

Layihəyə əsasən, Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində əhalinin məskunlaşdığı kənd və qəsəbə ərazi vahidlərinin sərhədləri daxilində yaşayış məntəqələrinə yaxın kənd təsərrüfatı təyinatlı torpaqlar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurumun müəyyənləşdirdiyi qaydada kənd və qəsəbə sakinlərinə (birillik və çoxillik əkinlərin aparılması üçün) güzəştli şərtlərlə icarəyə veriləcək. Qanun layihəsi səsvermə yə qoyularaq təsdiqlənib.

**150 min iş yeri açılacaq**

Qarabağ iqtisadi rayonunda 2030-cu ilədək təqribən 150 min iş yerinin açılacağı gözlənilir. Belə ki, Ağdam Sənaye Parkında iş yerlərinin gözlənilən sayı 5 min, kənd təsərrüfatı sektorunda 15-17 min, dağ-mədən sənayesində 1,5-2 min, turizm sahəsində 1,5-2 min, KOS sektorunda isə 10-11,5 mindir.

Beləliklə, hər bir sahə üzrə fasiləsiz iş gedir, yeni sənaye müəssisələri yaradılır, kənd təsərrüfatına geniş torpaq sahələri cəlb edilir, infrastruktur qurulur, sosial obyektlər tikilir. Eyni zamanda sahibkarlıq fəaliyyəti dəstəklənir. Bununla yanaşı məcburi köçkünlərin öz doğma torpaqlarına köçü təmin edilir. Görülən işlər Qarabağın tezliklə Azərbaycanın ən inkişaf etmiş regionlarından birinə çevriləcəyindən xəbər verir.

*Yeganə BAYRAMOVA*

# 1 milyon mərmi vəziyyəti dəyişəcəkmi?

## Ukrayna Qərb müttəfiqlərindən yeni hərbi yadımlar gözləyir

Rusiya -Ukrayna müharibəsində rus qoşunlarının üstünlüyü davam edir. Son zamanlar Rusiya ordusu Ukraynada yeni əraziləri ələ keçirib. NATO-nun Baş katibi Mark Rutte bugünlərdə keçirdiyi mətbuat konfransında Ukraynanın hazırda Rusiya ilə cəbhədə məğlub olduğunu etiraf edib. "İndi bütün qış boyu və lazım gələrsə, uzunmüddətli perspektivdə biz Ukraynaya hərbi yardım axının davam etdiyinə əmin olmalıyıq. Onda biz Kiyevi ərazi itirdiyi mövqedən cəbhəni sabitləşdirmək və sonra ərazisini bərpa etmək mövqeyinə keçirə bilərik", - deyə o qeyd edib. Onun sözlərinə görə, NATO-nun Kiyevə hərbi dəstəyi son dərəcə vacib olaraq qalır.

### Borrel Zelenskiyə vəd verib?

Belə bir şəraitdə müttəfiqlər Ukraynaya yeni hərbi yardımların edilməsini müzakirə edirlər. Avropa İttifaqının Ukraynaya 1 milyon mərmi vermək planının bu ilin sonuna qədər tamamlanacağı gözlənilir. Bu barədə Kiyevə səfər edən Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi Cozef Borrelin Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşündən sonra Ukrayna Prezidentinin Ofisi məlumat yayıb. Danışıqlarda Zelenski Aİ və ittifaqa üzv ölkələrin Ukraynaya göstərdiyi yardıma, xüsusən də 1 milyon mərmi verilməsi qərarına görə minnətdarlığını bildirib. Bundan əlavə, tərəflər Ukrayna ilə Avropa İttifaqı arasında gələcək qarşılıqlı fəaliyyət, hərbi yardımın artırılması, G7 qrupunun qərarına uyğun olaraq Kiyevə 50 milyard dollar ayırmaq üçün bütün prosedurların başa çatdırılması kimi məsələləri müzakirə ediblər. 2023-cü ilin martında Avropa İttifaqı Ukraynaya 1 milyon döyüş sursatı tədarük edəcəyinə söz vermişdi. Bu günədək rəsmi Kiyevə 980 mindən çox mərmi təhvil verilib.



### Bayden administrasiyası Kiyevə növbəti hərbi yardım paketi ayırıb



ABŞ-ın Bayden administrasiyası da hələ ki, öz siyasətini davam etdirir. Belə ki, ABŞ Ukraynaya 425 milyon dollar məbləğində növbəti silah paketi ayırdığını elan edib. Bununla bağlı yayılan sənəddə qeyd olunub ki, yeni yardım paketinə NASAMS hava hücumundan müdafiə raket komplekslərı, HIMARS reaktiv yaylım atəş sistemləri, "Stinger" daşınan zenit-raket kompleksləri, 155 və 105 mm kalibrli artilleriya mərmiləri, TOW tank əleyhinə sistemlər üçün döyüş sursatı, "Javelin" və AT-4 tank əleyhinə komplekslər, PUA-lara qarşı mübarizə vasitələri, hava - yer sinifli döyüş sursatı, "Stryker" zirehli transportyorlar, atıcı silahlar və döyüş sursatı daxildir. Həmçinin vurğulanıb ki, silahlar Kiyevə PDA (Presidential Drawdown Authority) mexanizmi vasitəsilə veriləcək ki, bu da ABŞ prezidentinə fövqəladə vəziyyət yarandığı təqdirdə xarici tərəfdaşa Konqreslə razılaşdırmadan silah tədarük etməyə imkan verir.

Yeri gəlmişkən, Pentaqonun sözçüsü Pat Rayder bildirib ki, Konqres 2024-cü ilin aprelində Ukrayna üçün əlavə maliyyələşdirməni təsdiqlədikdən sonra Birləşmiş Ştatlar Ukraynaya vəd etdiyi sursatın 83 faizinin, hava hücumundan müdafiə vasitələrinin 67 faizinin verilməsini təmin edib: "Əlavə maliyyənin qəbulundan oktyabrın ortalarına qədər anbarlarımızdan vəd etdiyimiz əsas sursatın 83 faizini Ukraynaya çatdırdıq". Söhbət 155 mm çaplı artilleriya mərmilərindən, HIMARS GMLRS sistemləri üçün raketlərdən, "Patriot" və NASAMS sistemləri üçün döyüş sursatlarından gedir. Pat Rayder ABŞ-ın "Stinger" və HAWK üçün raketlər də daxil olmaqla, vəd etdiyi digər hava hücumundan müdafiə imkanlarının 67 faizini təmin etdiyini bildirib. "Kiçik bombalar və 105 mm-lik sursat da daxil olmaqla, yanğınla bağlı öhdəliklərimizin 60 faizini yerinə yetirdik", - deyən Pentaqon rəsmisi əlavə edib ki, ABŞ anbarlarından silahların çatdırılması bir neçə gün və ya həftələr davam edir. Avadanlıqlardan hər hansı birinin təmirə ehtiyacı varsa, tez bir zamanda bərpa olunur və Ukraynaya göndərilir.

### "Politico": Trampın andiçmə mərasimindən sonra vəziyyət kəskin dəyişə bilər

Noyabrın 5-də keçirilən prezident seçkilərində respublikaçı Donald Tramp qalib gəlsə də, o, gələn ilin yanvarında səlahiyyətlərinin icrasına başlayacaq. Həmin vaxtda qədər Bayden administrasiyası Ukraynaya hərbi yardımlarla bağlı yeni qərarlar verə bilər. "Politico" nəşri də yazır ki, səlahiyyət müddəti başa çatmaq üzrə olan Cozef Bayden administrasiyası Konqresin Kiyev üçün ayırdığı 6 milyard dolları Donald Trampın andiçmə mərasiminədək Ukraynaya yönəltməyi planlaşdırır. Ali Rada Ağ Evin yardımı sürətləndirmək cəhdlərini həyəcan siqnalı kimi qiymətləndirib. Belə ki, Trampın andiçmə mərasimindən sonra vəziyyət kəskin şəkildə dəyişə bilər.

Rəsmi Kiyev dəfələrlə etiraf edib ki, ölkə müstəqil olaraq yalnız hərbi büdcə xərclərini ödəyə bilir və digər sahələr müttəfiqlərinin köməyilə maliyyələşir. Hökumət 2025-ci il üçün büdcə layihəsini 1,6 trilyon qrivna (38,68 milyard dollar) kəsirlə Radaya göndərib. Qərb tərəfdaşları isə Kiyevə özünü maliyyələşdirmək imkanlarını artırmaq üçün daha çox mənbələr axtarmağı tövsiyə edir.

"Politico" nəşri Tramp administrasiyasının sabiq məmurlarına istinadla onu da yazıb ki, ABŞ-ın yeni seçilmiş Prezidenti Donald Tramp Ukraynanı taleyin ümidinə buraxmaq fikrində deyil. Bildirilir ki, Trampın Ukraynanı taleyin ümidinə buraxacağından narahat olanlar var, lakin "onun əsas prioriteti ədalətli sülh tapmağa çalışmaq olacaq".

Xatırladaq ki, bir neçə gün öncə Donald Trampın baş müşaviri Brayan Lanza BBC-yə bildirmişdi ki, Ukrayna ərazilərin qaytarılması barədə düşünmək əvəzinə, Trampın Rusiya ilə "realist dünya görüşünü" qəbul etməlidir. Müşavir həmçinin vurğulamışdı ki, Trampın gələcək administrasiyası Ukraynanın əks-hücum imkanlarını təmin etmək əvəzinə, məhz sülhə nail olmaq məsələsinə diqqət yetirəcək.

Lakin çox keçmədən "Reuters" agentliyi Trampın keçid komandasının adı açıqlanmayan nümayəndəsinə istinadən belə bir məlumat yaydı ki, Lanzanın Ukrayna mövzusunda söylədiyi sözlər ABŞ-nin yeni seçilmiş prezidentinin mövqeyini əks etdirmir. "Brayan seçki kampaniyasında işləmək üçün işə götürülmüşdü", - deyə agentlik Tramp qərargahının nümayəndəsinin sözlərini sitat gətirib: "O, Prezident Tramp üçün işləmir və onun adından danışmır".

Beləliklə, Ukrayna hazırda çox çətin durumdadır. Rusiya ordusunun hücumlarının gücləndiyi bir şəraitdə müttəfiqlərinin yetərincə hərbi dəstək verməməsi rəsmi Kiyevi çıxılmaz vəziyyətə sürükləyir.

*N.BAYRAMLI*

# Taleyə qarşı peyvənd

## Pedro Kalderonun "Həyat yuxudur" dini-fəlsəfi pyesi haqqında

**Biz yuxularımızı əmələ gətirən cövhərdən yaranmışıq, bu miskin ömrümüz də yuxu haləsində keçir.**

**Vilyam Şekspirin "Fırtına" tragikomediyasından**

Kalderon ispan ədəbiyyatının Servantesdən sonra dünya miqyaslı ən böyük fiqurudur. Hələ yeniyetməykən qoşulduğu bir poeziya yarışmasında İspaniya intibahının zirvəsi, dövrün canlı əfsanəsi, diri klassiki Lope de Veqanın tərifini qazanması onun sənət gələcəyinə işıq dəhlizi açmış, bir kahinin, münəccimin peyğəmbərənə öncəgörməsi kimi gənc şairin ilhamına qanad vermişdi. Əsərlərinin fəlsəfi dərinliyinə, bədii gücünə görə Pedro Kalderonu özündən əvvəlki dramaturqlardan yalnız Vilyam Şekspirlə yanaşı qoymaq olar. Əbəs yerə onu "katoliklərin Şekspiri" adlandırmırlar. Başqa ədəbi formalarda yazdığı əsərlərdən savayı Kalderon həm dram, həm də komediya janrında qələmə aldığı 120 pyesi dünya ədəbiyyatının qızıl fondunda yer almış qiymətli əsərlər kimi bu gün də qorunmaqdadır, onlardan bir qismi populyarlığını indiyəcən saxlayır, səhnələrdən düşmür, dərc olunur, dərsliklərə salınır.

Kalderonun uzun ömrü, məhsuldar yaradıcılığı Avropada intibahın böhrana girdiyi, qitənin bir hissəsində klassisizm cərəyanının, o biri hissəsində barokko məktəbinin təşəkkül tapdığı dövrə düşür. On yeddinci əsrlə bərabər doğulan dahi dramaturq səksən bir illik ömründə yeni dünyaya keçidin bir çox əlamətini yaxından izləmişdisə də, yaradıcılığı, düşüncəsi, həyat tərziylə qədim həqiqətlərə, minillik sınaqdan keçmiş laxlamaz-tərpənməz mənəvi imperativlərə həmişə sadiq qalmışdı. Əgər Kalderonla bir dövrdə yaşamış, klassisizm məktəbinə mənsub fransız dramaturqları (Kornel, Rasin, Molyer) antik yunan teatrının, Esxil, Sofokl, Evripid, Aristofan dramaturgiyasının ənənələrini, qədim dövrün ictimai ideallarını, sənət ehkamlarını, başqa sözlə, Aristotel məktəbini dirçəltməyi qarşıya məqsəd qoymuşdularsa, Kalderonun timsalında barokko cərəyanı özündən əvvəlki renessans epoxasının milli-demokratik, humanist, şən, optimist ruhundan yavaş-yavaş uzaqlaşıb başqa bir antik düşüncə məktəbinin - stoisizmin ideallarına qayıtmışdı.

On yeddinci əsrdə hakim mövqe qazanmış bədii-fəlsəfi platformaların timsalında belə bir bəlli gerçəyə bir daha şahid oluruq ki, bütün böyük ideyalar, parlaq fikir cərəyanları qədim dövrdə yaranıb, sonrakılar ondakıların hər dövrə, hər zamana uyğun yenidən şəkilləndirilməsidir. Bu məqamda müəllifini unutduğum bir şişirdilmiş mülahizəni də xatırlayıram: "Bütün dünya fəlsəfəsi Platonun dialoqlarına yazılmış şərhlərdən ibarətdir". Ancaq buna qohumluğu çatan başqa bir mülahizəni qətiyyən şişirtmə saymaq olmaz ki, Platondan sonra yer üzünə ondan daha yüksək, daha üstün, daha möhtəşəm ideya hələ də gəlməyib.

***

Mütəxəssislərin ümumi rəyinə görə, "Həyat yuxudur" pyesi Pedro Kalderonun şah əsəridir. Barokkonun ortaya çıxmasından sonra da ləğvinə sərəncam verilməyən intibah dramaturgiyasından, o cümlədən komediya ustası Lope de Veqanın yaradıcılığından fərqli olaraq Kalderon teatr səhnəsinə fəlsəfi problematika gətirmişdi. Ona qədər dini-fəlsəfi mövzular esselərdə, traktatlarda, irili-xırdalı poetik əsərlərdə çözülərdi (əlbəttə, Şekspir yenə istisnadır), Kalderonun sayəsində teatr əyləncə mərkəzindən, katarsis çildağından, ictimai-tərbiyəvi institutdan fəlsəfi düşüncə mərkəzinə, asketizm məbədinə, stoisizm monastırına çevrildi. Ancaq Kalderon əqidə etibarıyla təkcə stoik deyildi, həm də dini təhsil almış katolik rahibiydi, bu baxımdan onun yaradıcılığını da antik yunan-Roma fəlsəfəsiylə xristian sxolastikasının calağı, sintezi saya bilərik.

Əsər oxucu-tamaşaçı kütləsinə 1635-ci ildə təqdim olunmuşdu. Məsələnin simvolik tərəfi budur ki, ispan intibahının, renessans dramaturgiyasının atası Lope de Veqa məhz həmin il dünyadan köçmüşdü. Fəqət bu gediş yalnız bir dahinin köçü deyildi, onunla birgə intibah estetikası da misli görünməmiş bir təntənəylə dəfn olunmuş, "Həyat yuxudur" pyesinin ortaya çıxmasının ardınca sənət meydanında barokko üslubunun hegemon cərəyana çevriləcəyi yeni fəlsəfi-estetik epoxaya girilmişdi.

Yeni məzmun, yeni mahiyyət yeni də forma istəyirdi. Klassik dramdan fərqli olaraq Kalderonun pyesi üç pərdədən, yaxud üç şəkildən (əslində, bu istilahların heç biri o bölgü vahidlərinə uyğun gəlmir, orijinalda buna "xornada" deyilir ki, bu söz də insanın bir gün ərzində keçdiyi ömür yolu anlamında işlənir) ibarətdir. Pyesdəki bədii zaman da məhz üç günü əhatə eləyir: birinci gün biz qəhrəmanların yeri-yurdu, keçmişi, əhvalı, düşüncəsi, məqamıyla tanış oluruq, bu hissədə əsas çoxdan qoyulmuş konflikta təkan verilir; ikinci gün gərginlik kulminasiya həddinə çatır, əsəblər gərilir, xarakterlər açılır, obrazlar, prinsiplər toqquşur; üçüncü gün hadisələr də, xarakterlər də çözülür, hər fiqur şahmat taxtasının üstündə öz yerini tapır, hər kəs öz təyinatı üzrə həddəfinə yetişib gerçək taleyinə, dilədiyi qismətə qovuşur.

***

Rosaura adlı kişi qiyafəli kübar qadın Poloniya (Polşa) kralının sarayına yaxın yerdə nökəriylə birgə azır. Artıq toran qovuşsa da, ətrafda bir işartı, bir közərti görünmür. Birdən yolçular yaxınlıqda bir qalaça görürlər, qalanın divarları arasından göyə yüksəli ah-nalə ucalır. Məlum olur ki, bu, zindanda zəncirə vurulmuş Sexizmundonun səsidir, o, gecə-gündüz kor taleyinə lənət oxuyur. Dünyaya göz açdığı gündən bu gənc həyatın sevincini dadmayıb, gün üzünə çıxarılmayıb. O, üzünü göylərə tutub fəryad qoparır, hansı günahın yiyəsi olduğunu, nəyə görə belə ağır cəza çəkdiyini soruşur. Ona elə gəlir ki, dünyaya gəlməyiylə Tanrını qəzəbləndirib, amma axı bu günahdan cəmi məxluqat pay götürüb, ona qalsa, bu cəzadan da hamıya pay düşür. Di gəl, göylərin sahibi təkcə ona qənim kəsilib. Sexizmundo özünü heyvanlarla, quşlarla, balıqlarla, çaylarla müqayisə eləyir, onların hər birinə hərəkət azadlığı verilib, Yaradan bircə ondan bu azadlığı əsirgəyib.

Qalaçanın qapısı açıq olduğundan Rosaurayla nökəri içəri keçirlər, Sexizmundo onları görəndə heyrətə gəlir, çünki bu yaşına qədər onu nəzarətdə saxlayan Klotaldodan özgə bir bəni-adəm görməyib. Odur ki, əvvəlcə onları öldürmək istəyir, sonra fikrindən daşınır, öz qəddarlığını vəhşi kimi qəfəsdə saxlanmasıyla izah eləyir. Zəncirə vurulduğu bu qala onun həm beşiyi, həm də məzarıdır. Qadın dustağı söhbətə tutur, ona təskinlik verib deyir ki, özünün də həyatı fəlakətlə, qəzavü-qədərlə doludur. Səsə gələn Klotaldo qala keşikçilərini haraylayır, onların hamısının üzüniqablı olması Rosauranı təəccübləndirir. Klotaldo çağırılmamış qonaqları ölümlə hədələyir, Sexizmundo bunun müqabilində deyir ki, onların başından bir tük əskik olsa, canına qəsd eləyəcək.

Keşikçilər dustağı aparırlar. Rosaura şpaqasını Klotaldoya göstərir, türmə nəzarətçisi bir zaman gözəl Violantaya bağışladığı yadigarı tanıyır. Klotaldo kişi qiyafəsinə bürünmüş Rosauranı öz oğlu sanır, buna görə də iki od arasında qalır: doğmaca övladını bəladan qurtarmaq qayğısınamı qalsın, yoxsa namuslu bir təbəə kimi borcunu yerinə yetirsin, qalaya icazəsiz dürtülmüş caniləri ədalət divanına təhvil verib kralın qəzəbinə gətirsin?..

***

Sarayda isə taxt-tacı təhvil-təslim eləməyə hazırlıq gedir, qocalıb əldən düşmüş kral Basilio özünə varis axtarır. Basilionun böyük bacısının qızı Estrelya öz xalası oğlu, kralın kiçik bacısının övladı, Moskovio (Moskva) hersoqu Astolfo ilə Polşa tacı uğrunda rəqabət aparır. Hersoq xalası qızını komplimənt yağışına tutur, Estrelya onun təmtəraqlı sözlərinin səmimiyyətinə inanmasa da, Astolfonu sevir. Kral öz varislərinə qalada zəncirə vurdurduğu tək oğlundan danışır. Sexizmundonun dünyaya gəlməsi ərəfəsində münəccim ona bədbin proqnozlar verib, oğlunun qəddar bir tiran olacağını, valideynlərinə də, xalqa da bəlalar gətirəcəyini söyləyib. Həqiqətən də, Sexizmundo dünyaya gələr-gəlməz anasını o dünyaya göndərib; bunun ardınca günəşin üzü tutulub, yer üzünə zülmət qaranlıq çöküb. Bütün bunları nəhs əlamətlər kimi yozan kral ulduzların sözündən çıxmamağı qərara alıb, oğlunu zindana atdırandan sonra xalqa şahzadənin öldüyünü car çəkdirib.

İyirmi ildən bəri Sexizmundonu qəfəsdə saxladan kral ata indi əməlindən peşmandır, ulduzların hökmünü bir də sınaqdan keçirmək istəyir. Basilio qanunu pozmuş Rosaura ilə nökərinin günahını bağışlayır, ardınca da oğlunu zəncirdən açdırıb onu saraya gətirir. Sexizmundoya yuxu dərmanı verirlər, şahzadə gözünü açanda özünü atasının sarayında, cah-cəlal, dəbdəbə içində görür. Şahzadənin ilk niyyəti Klotaldonun başını əkmək olur, çünki bu namərd qoca gün kimi aydın həqiqəti illər boyu ondan gizləyib, Sexizmundonun padşah oğlu olduğunu bəxtsiz, ümidsiz, kimsəsiz cavandan danıb. Qoca Klotaldo qəzəbli şahzadənin əlindən güclə qurtulur. Bibisi oğlu, Moskoviya şahzadəsi hersoq Astolfo ilə də Sexizmundo saymazyana davranır, onu özünə tay tutmur. Şahzadənin haqsız əmrinə boyun əymək istəməyən nökəri isə Sexizmundo eyvandan dənizə atır.

Onu heç bir səbəbsiz əsil-nəslindən, haqqından, azadlığından məhrum eləyib zəncirə vurdurmuş, şirin həyatı ondan ötrü zəhərə döndərmiş atasına da şahzadə nifrət bəsləyir, üstəlik, bunu kraldan gizlətmir də. Rosaurayla ikinci dəfə qarşılaşanda Sexizmundo onun namusuna əl uzadır, Klotaldo qızını ondan qorumağa çalışanda hersoq Astolfo qocanın üstündən gəlir. Qəzəbdən ağlını itirmiş şahzadə Moskva prinsiylə döyüşə atılır. Bu arada məlum olur ki, Rosaura buralara Astolfonun sorağıyla gəlib çıxıb. Onlar bir-birini sevirlər, Astolfo qızın şəklini hələ də sinəsində gəzdirir. Estrelyaya hersoqun marağı isə sırf hakimiyyət hərisliyindən irəli gəlir, özü Polşa taxtına çıxa bilməsə belə kraliçanın əri olmaq da işə yarayar - Estrelya böyük bacının övladı olduğuna görə taxt-tacın ona keçmə ehtimalı az deyil.

***

Sexizmundo yaşadığı bütün acılara, əzablara, alçalmalara görə atasından qisas almaq istədiyini kralın üzünə söyləyir. Bundan sonra Basilionun səbri daşır, oğlunu yenidən həbsə göndərir. Sexizmundoya yenə yuxu dərmanı verirlər, şahzadə gözünü açanda özünü zindanda tapır. Klotaldo onu inandırmağa çalışır ki, sarayda olduğunu yuxuda görüb, ümumiyyətlə, hər cür həyat başdan-başa yuxudur. Şahzadəyə əyan olur ki, gördüyü şirin yuxu salındığı əbədi zindanın küncündə, gömüldüyü sonsuz qaranlığın dibində bir anlıq yanıb-sönən ötəri bir işıqmış. Bundan sonra onun beyni nurlanmağa, zülmətdən, həbsdən, nəhs taledən qurtuluşun gerçək yolunu aramağa başlayır.



**F.Uğurlu**

davamı növbəti sayımızda

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Türküstan Media Group” MMC – 050 241-48-23
“Region Press” MMC – 055 316-79-01
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**






# “Müdriklik sevgisi”...

**Fəlsəfə bizi həmişə diqqətli, ehtiyatlı və tənqidi davranmağa yönəldir. İnsanların ağlına gələ bilməyən bir çox hadisələr yaşanır. Bu hadisələri həll etməyə çalışan elmlər sırasında fəlsəfənin xüsusi əhəmiyyəti var. Fəlsəfə insanların düşüncəsini inkişaf etdirməyə, hadisələrə baxış bucağını dəyişdirməyə, insanları düşünməyə sövq edir. Belə ki, insanlar düşünərkən inkişaf edər, yəni düşünmə əsnasında irəliləyərlər. Fəlsəfənin əsl hədəfi bir şeyi ortaya çıxarmaq deyil, insanları düşünməyə və araşdırmaya sövq etməkdir.**

## Düzgün seçim etməyə şərait yaradır

Fəlsəfə terminini ilk dəfə yunan riyaziyyatçısı Pifaqor işlədib. Fəlsəfənin yunan dilindən tərcüməsi isə “müdriklik sevgisi” mənasını ifadə edir. Amma bu, çox səthi və qeyri-fəlsəfi tərifdir. Əksinə, fəlsəfənin orijinal tərifi onun praktikasında, yəni öz təcrübəsində görünür. Fəlsəfə insan biliyinin ən qədim sahələrindən biri kimi problemlərin qoyuluşuna və həllinə yönəlmiş mənəvi fəaliyyətin xüsusi sahəsidir.

İnsan öz həyatının müəyyən anlarında seçim zərurəti qarşısında qalır və öz seçimindən asılı olaraq azadlığını reallaşdırır. Fəlsəfə insanların daha düzgün seçim etməsinə kömək etməlidir. Bu məsələnin həlli üçün fəlsəfə ən ümumi ideyaları, idealları, prinsipləri, baxışları, kateqoriyaları, təcrübə formalarını aşkara çıxarır. Eyni zamanda, davranış meyarlarını, dəyərləri müəyyənləşdirir və onları zəkanın tənqidi süzgəcindən keçirilərək yenidən qiymətləndirilməsinə kömək edir. Bir sözlə, fəlsəfə qaranlıq otaqda qara bir obyekti axtarmaq kimidir. Həqiqətən də fəlsəfə bir axtarışdır, prosesdir, fəlsəfə həmişə soruşur.

Tarixdən də məlumdur ki, qədimdə insanların gündəlik həyatını dəyərləndirmək, mövcud problemləri, sualları həll etmək, olan hadisələrin mahiyyətini açıqlamaq məhz filosofların işi olub. Nümunə üçün Platonun “Dialoqlar”ını xatırlamaq yetər. Kanada əsilli akademik Lou Marinoff bir müsahibəsində deyirdi: “Antik dünyada fəlsəfə həyatın və daha yaxşı yaşamağın bələdçisi idi. Fəlsəfi praktika həmin şeyi təkrar səhnəyə qaytarır. Beləliklə, bizə elə gəlir ki, biz çox qədim bir iş görürük, yeni tərzdə olsa da”.

Əslində, qədim dövrdə həm Şərqdə, həm də Qərbdə filosoflar hikməti müzakirələr və söh-

## Fəlsəfi məsləhətləşmə...

bətlər vasitəsilə axtarıb, cilalayıblar. Öz vətənlərində öyrəndikləri ilə kifayətlənməyənlər hətta uzaq ölkələrdəki ustadların da görüşlərinə gedər, onların müzakirələrinə qoşular, sonra bütün biliklərini öz xalqının milli təfəkkürünə uyğunlaşdırıb yeni bir hikmət təqdim edərmişlər. Buna nümunə kimi istər antik dövr Yunan, istərsə də qədim Hind və Çin filosoflarını göstərmək olar. Qısa desək, onlar həqiqəti söhbətlərdə, canlı ünsiyyətdə axtarıb tapıblar, çünki zaman-məkan fövqündə olan düşüncələr, ideyalar milliyyətindən, dinindən asılı olmadan hər insanın axtardığını ehtiva edir. Burada bütün dövrlər üçün keçərli olan əhəmiyyətli bir məqamı vurğulayaq: Filosofla söhbət, ünsiyyət zamanı iki istiqamətdə proses gedir-bir tərəfdən söhbət zamanı dinləyici ona lazım olan həqiqəti dərk edir, düzgün istiqaməti görür, digər tərəfdən filosof yeni təcrübələr vasitəsilə öz fəlsəfəsinə daha bir qat əlavə edə bilir.



## 22 il öncə...

2002-ci ildə UNESCO-nun təşəbbüsü ilə Dünya Fəlsəfə Günü təsis edilib. Həmin vaxtdan etibarən hər il noyabr ayının üçüncü cümə axşamı Dünya Fəlsəfə Günü kimi qeyd edilir. Bu gün təfəkkürün, müxtəlif mədəniyyətlərin və hər bir insanın inkişafı üçün fəlsəfənin əhəmiyyətini vurğulayır.

Azərbaycanda fəlsəfi fikrin inkişafını izləmək üçün keçmişin mühüm yazılı abidələri köməyimizə çatır. Avesta, pəhləvi mətnləri, qədim yunan filosofları və tarixçilərinin əsərləri, orta əsrlərin yazılı abidələri, ölkə ərazisindəki arxeoloji qazıntıların materialları, dil və şifahi ədəbiyyat tarixinin tədqiqi və s. araşdırmalar var. Ölkəmizdə fəlsəfi fikir tarixində İslam dininin müddəaları xüsusi yer tutur. Əbülhəsən Bəhmənyar, Əbuhəfs Sührəvərdi, Eynəlqüzat Miyanəci, Şihabəddin Sührəvərdi, Nizami Gəncəvi, Əfzələddin Xunəci, Siracəddin Urməvi, Nəsirəddin Tusi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Rəcəbəli Təbrizi, Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundzadə və başqaları Azərbaycanda fəlsəfi fikrin inkişafında mühüm rol oynayıblar.

***Yeganə BAYRAMOVA***

## Allah rəhmət eləsin!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı partiyanın İdarə Heyətinin üzvü, Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımova atası
**ELDAR QASIMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

## MÜSABİQƏ ELANI

AZƏRBAYCAN RESPUBLİKASI
AUDİOVİZUAL ŞURASI

Azərbaycan Respublikası Audiovizual Şurası ümumölkə yerüstü radio yayımçısı lisenziyasınınverilməsi üçün18 noyabr 2024-cü il tarixdən 26 dekabr 2024-cü il tarixədək müsabiqə elan edir.

İlkin mərhələdə yayım üçün radiotezlik:
* “Bakı Teleqüllə Kompleksi”ndən - 92.5 MHs

Müsabiqədə iştirakla bağlı bütün məlumatları Azərbaycan Respublikası Audiovizual Şurasının rəsmi vebsaytının (www.acra.gov.az) “Müsabiqə elanları” bölməsinə daxil olmaqla almaq olar.
Telefon: (012) 598-32-24; (012) 434-81-07

## MÜSABİQƏ ELANI

Azərbaycan Respublikası Audiovizual Şurası ümumölkə yerüstü radio yayımçısı lisenziyasınınverilməsi üçün18 noyabr 2024-cü il tarixdən 26 dekabr 2024-cü il tarixədək müsabiqə elan edir.

İlkin mərhələdə yayım üçün radiotezlik:
* “Bakı Teleqüllə Kompleksi”ndən - 88.7 MHs

Müsabiqədə iştirakla bağlı bütün məlumatları Azərbaycan Respublikası Audiovizual Şurasının rəsmi vebsaytının (www.acra.gov.az) “Müsabiqə elanları” bölməsinə daxil olmaqla almaq olar.
Telefon: (012) 598-32-24; (012) 434-81-07

AZƏRBAYCAN RESPUBLİKASI
AUDİOVİZUAL ŞURASI

## “Bakcell” “Ən Uğurlu Rebrendinq” mükafatına layiq görülüb




Qısa zamanda abunəçilərə altı innovativ məhsul təqdim edən “Bakcell” reklam və marketinq dünyasının mühüm beynəlxalq müsabiqələrindən biri olan “Felis” tərəfindən “Ən Uğurlu Rebrendinq” mükafatına layiq görülüb.

Qeyd edək ki, “Bakcell” rebrendinq zamanı “Meta” və “Alphabet” kimi dünyanın aparıcı brendləri ilə işləyən İspaniyanın qlobal konsaltinq şirkəti - “Saffron”la əməkdaşlıq edib.

“Bakcell”in son aylarda abunəçilərə təqdim etdiyi innovativ məhsullar arasında “Star Portfolio”, “Birinci Tarif”, “Bakcell Kart”, “Tarif Məsləhətçisi”, “VoWifi” və “Fiber1” yer alır. Şirkət, həmçinin həyata keçirdiyi sosial layihələri milli qürur fəlsəfəsi altında həyata keçirməklə sektorda lider mövqeyini daha da gücləndirir.

“Felis Mükafatları” 19 ildir ki, Türkiyədə reklam və marketinq sektorunda innovativ yanaşma və kreativlik baxımından fərqlənən layihələri dəyərləndirir. 2022-ci ildən etibarən bu müsabiqə Azərbaycan üzrə də təşkil edilir.

**“Bakcell” haqqında**

“Bakcell” Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda “Bakcell” üç milyondan çox müştərini yüksəkkeyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Şirkət süni intellektə əsaslanan innovasiyalar və həllər vasitəsilə Azərbaycanın davamlı inkişafına töhfə verir və Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biridir.

“Bakcell” müxtəlif ölkələrdə enerji, telekommunikasiya, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən “NEQSOL Holding” beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.

## “Nar”ın sərfəli “TouristSIM” tarifləri ilə Azərbaycanı kəşf et!

Ölkənin ən sərfəli mobil operatoru “Nar” ölkəmizə gələn turistlərin ünsiyyət ehtiyaclarını nəzərə alaraq, “TouristSIM” tariflərini təqdim edir. Xüsusi olaraq, ölkəmizə səyahət edən xarici qonaqlar üçün nəzərdə tutulmuş bu tariflər turistlərə sərfəli qiymətlə mobil internet, ölkədaxili və beynəlxalq zənglər təklif edir.




Ölkəmizdə vaxtlarını əyləncəli və səmərəli keçirmək üçün turistlər cəmi 34 manata “TouristSIM 40GB” paketi əldə edə bilərlər. Paketə 20GB mobil internet və sosial şəbəkələr üçün 20GB əlavə internet, həmçinin 100 dəqiqə ölkədaxili və 20 dəqiqə beynəlxalq zənglər daxildir.

Bundan əlavə, irihəcmli paket əldə etmək istəyənlər üçün “TouristSIM 70GB” və “TouristSIM 130GB” tarifləri də mövcuddur. “TouristSIM 70GB” paketinə 40GB mobil internet, sosial şəbəkələr üçün 30GB internet, 170 dəqiqə ölkədaxili və 50 dəqiqə beynəlxalq zəng daxildir . “TouristSIM 130GB” paketinə isə 80GB mobil internet, sosial şəbəkələr üçün əlavə 50GB internet, 250 dəqiqə ölkədaxili və 70 dəqiqə beynəlxalq zənglər daxildir. “TouristSIM 70GB” və “TouristSIM 130GB” paketlərinin qiymətləri müvafiq olaraq 55 manat və 75 manatdır.

Tarifi aktivləşdirmək üçün turistlər istənilən “Nar” mağazasına yaxınlaşaraq ölkəmizə giriş zamanı qeydiyyatdan keçirdikləri pasportlarını təqdim etməlidirlər. Qeyd edək ki, paket aktivləşdirildikdən sonra 30 gün müddətində istifadə edilə bilər və bu müddətin sonunda nömrə avtomatik olaraq deaktiv edilir. Tariflər haqqında daha ətraflı məlumatı “nar.az/TouristSIM” səhifəsindən əldə etmək mümkündür.

Hazırda 2,2 milyon abunəçiyə yüksəkkeyfiyyətli rabitə xidmətləri göstərən “Nar” son 5 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4809
Sifariş: 2582
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Elbrus Cəfərli